Türk Dünyasının ürəyi Şuşada döyünür



Mədəniyyət paytaxtımız Şuşa Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünə ev sahibliyi edir. Yekunda təşkilatın inkişafı və qarşıda duran məqsədlərin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyan Qarabağ Bəyannaməsi qəbul ediləcək.

Zirvə görüşü çərçivəsində Prezident İlham Əliyev bir sıra ikitərəfli görüşlər keçirib. Dövlət başçısı TDT-nın Baş katibi Kubanıçbek Ömüralıyevlə görüşündə qeyri-rəsmi Zirvə toplantısının müntəzəm xarakter daşıyacağına ümidvar olduğunu deyib.

SƏHİFƏ 2-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

06 İYUL ŞƏNBƏ 2024 № 25 (4176) Qiyməti - 40 qəpik www.kaspi.az





FRANSIZLAR MAKRONLA

VİDALAŞMAQ FİKRİNDƏDİRLƏR

Seçkinin birinci turu göstərdi ki, Fransa əhalisi illərdir ölkənin aktual problemlərini həll edə bilməyən siyasi elitasından narazıdır. Buna görə də vətəndaşlar Makron iqtidarına səs verməmək qərarına gəliblər.

SƏHİFƏ 6-da



GEYİMƏ XƏRCLƏNƏN MİLYONLAR

May ayında pərakəndə ticarət məntəqələrində 543 milyon manatlıq geyim almışıq. Bu rəqəm sosial platformalarda müzakirələrə səbəb olub. Ekspertlər geyim sevdamızın artmasını müxtəlif səbəblərlə əlaqələndirirlər.

SƏHİFƏ 10-da



GÖZƏLLİYİN TƏBİƏTDƏKİ ƏKSİ

Bakıətrafı ərazilər gül yetişdirmək üçün əlverişli deyil. Bu, qiymətlərə də təsir edir. Mütəxəssis deyir ki, radiasiya çox olan ərazilərdə, məsələn, Qəbələdəki istixanalarda gül yetişdirmək daha asandır.

SƏHİFƏ 12-də

İKİNCİ DƏFƏDİR Kİ, ŞƏT-İN ZİRVƏ TOPLANTISINA DƏVƏT OLUNURUQ



ŞƏT DÜNYANI DƏYİŞİR

Prezident İlham Əliyevin Astanada Şanxay Əməkdaşlıq Təşkilatı sammiti çərçivəsində keçirdiyi görüşlər, imzalanan sənədlər Bakının beynəlxalq səviyyədə mövqelərini daha da gücləndirir.

AZƏRBAYCANIN YERİNİ GÖSTƏRƏN SƏFƏR

Prezidentin Astana proqramı Avrasiyanın qarşılıqlı anlaşmaya, səmərəli iqtisadi əməkdaşlığa söykənən arxitekturası üçün aparılan müzakirələrdə Azərbaycanın yerini göstərir. ŞƏT-in cazibə qütbünə çevrilməsi ölkəmizə ümumi planda dayanıqlı qazanc gətirir.

ÇİNLƏ MÜNASİBƏTLƏRDƏ YENİ MƏRHƏLƏ

Azərbaycan-Çin münasibətlərində yeni mərhələ ŞƏT-in Zirvə toplantısı çərçivəsində qəbul olunmuş “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” ilə müəyyənləşdirilir.

SƏHİFƏ 3-də

“Öz ayaqlarımın üzərində durmağı bacarıram”

“ATAM BUNU TƏHSİLLƏ İSTƏYİRDİ, MƏN FUTBOLLA ETDİM...”



Futbolun nə olduğunu bilməyən, televizorda belə izləməyən 11 yaşlı qızcığaz məktəbin futbol komandasına seçilir. O qədər yaxşı oynayır ki, həmin il məktəblərarası yarışda çempion olurlar. Müsahibimiz Azərbaycan millisinin futbolçusu Ayşən Əhmədovadır.


SƏHİFƏ 8-9-da



UĞURLU NƏTİCƏLƏR VAR, AMMA...

Necə ki, dörd il əvvəl Azərbaycan zəfərdən dərhal sonra sülh təşəbbüsü ilə çıxış edib, indi də Ermənistan bu şansı əldən buraxmamalıdır. İrəvan sülh prosesinə əngəl yaradan məqamları ortadan qaldırmalıdır.


SƏHİFƏ 4-də



DƏYİŞƏN ANCAQ QİYMƏTLƏRDİR

Sərnişinlər taksilərin bahalaşması müqabilində keyfiyyətin aşağı olmasından şikayətçidirlər. Ekspertlər atılan addımları zəruri hesab edirlər. Rəsmi qurum isə qaydaları pozanlara xəbərdarlıq edir.

SƏHİFƏ 7-də



MÜKƏMMƏL ƏSƏRLƏR MUZEYİ


Vatikan Muzeyləri kompleksi dünyanın ən çox ziyarət edilən beş muzeyindən biridir. Hər il altı milyondan çox insan bu muzeyləri ziyarət edir. Burada ziyarətçiləri 11 muzey, 54 qalereya və on minlərlə əsər gözləyir.

SƏHİFƏ 13-də




Paşinyan üçün Avropa İttifaqı tələsi

SƏHİFƏ 5-də



Hovuz seçərkən nələrə diqqət etməli?

SƏHİFƏ 14-də



Cəbrayılda logistik mərkəz yaradılacaq

SƏHİFƏ 11-də



Uşaqların sevimli Ələkbər əmisi

SƏHİFƏ 15-də



Klublarımızın avrokubok hazırlığı

SƏHİFƏ 16-da

Kaspi ÜÇ ƏSRİN QƏZETİ



Türk dünyasının ürəyi Şuşada döyünür

Mədəniyyət paytaxtımız Şuşa Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünə ev sahibliyi edir. Yekunda təşkilatın inkişafı və qarşıda duran məqsədlərin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyan Qarabağ Bəyannaməsi qəbul ediləcək.

Zirvə görüşü çərçivəsində Prezident İlham Əliyev bir sıra ikitərəfli görüşlər keçirib. Dövlət başçısı TDT-nın Baş katibi Kubanıçbek Ömüralıyevlə görüşündə qeyri-rəsmi Zirvə toplantısının müntəzəm xarakter daşıyacağına ümidvar olduğunu deyib.

Zirvə görüşünün əhəmiyyətinə toxunan Baş katib TDT-nın yalnız rəsmi deyil, eyni zamanda, qeyri-rəsmi Zirvə toplantısını da ölkələrimiz arasında əməkdaşlığın və tərəfdaşlığın daha da dərinləşməsinə xidmət göstərən amil kimi qiymətləndirib. Zirvə toplantısının nəqliyyat, əlaqələr, iqlim dəyişikliyi kimi çox vacib mövzulara həsr olunduğunu və bu məsələlər üzrə türk dövlətləri arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini qeyd edib. O, nəqliyyat və əlaqələr sahələrində çoxtərəfli əməkdaşlığın önəminə toxunub və bunun Türk dünyasının güclənməsinə əməli töhfə verəcəyinə əminliyini bildirib. Kubanıçbek Ömüralıyev bu xüsusda Orta Dəhlizin əhəmiyyətini vurğulayıb.

Prezident İlham Əliyev Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarla da görüşüb. E.Tatar bu Zirvə toplantısının nəqliyyat, əlaqələr və iqlim fəaliyyəti kimi çox aktual məsələlərə həsr olunduğunu vurğulayıb. O, 2022-ci ilin noyabrında Səmərqənddə keçirilmiş TDT-nın Zirvə toplantısında Şimali Kipr Türk Cümhuriyyətinin bu təşkilatda müşahidəçi statusunu almasından sonra əlaqələrin inkişafından məmnunluğunu bildirib.

Dövlət başçısı həmçinin Türkiyənin xarici işlər naziri Hakan Fidanı da qəbul edib. Görüşdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla əldə edilmiş razılığa əsasən, Türkiyənin dövlət başçısının Türkiyə-Niderland matçını izləmək üçün Almaniyaya səfər etməsi ilə əlaqədar Şuşada keçiriləcək Zirvə toplantısında qardaş Türkiyəni bu ölkənin vitse-prezidentinin təmsil edəcəyi vurğulanıb.

XANKƏNDİNİN SİMASI DƏYİŞİR





Prezident Xankəndidə yeni hotellərin açılışında iştirak edib. Qarabağ Universitetində görülən işlərlə tanış olub.

Prezident İlham Əliyev Şuşa və Xankəndiyə səfər edib. Dövlət başçısı səfər çərçivəsində bir sıra açılışlara qatılıb, Xocalı Hava Limanında olub.

XOCALI HAVA LİMANI TƏKMİLLƏŞDİRİLƏCƏK

Dövlət başçısına bildirildi ki, dəniz səviyyəsindən 575 metr hündürlükdə yerləşən Xocalı aeroportunun ərazisi 188,5 hektardır. Hazırda hava limanında 2170 metr uzunluğunda və 45 metr enində bir uçuş-enmə zolağı, iki sürmə yolu, bir perron və bir terminal mövcuddur. Perron ərazisində hava gəmiləri üçün ümumilikdə üç dayanacaq mövcuddur.

Məlumat verildi ki, Xocalı Hava Limanının infrastrukturunun inkişaf etdirilməsi məqsədilə bir sıra təkmilləşdirmə işlərinin aparılması nəzərdə tutulub. Belə ki, mövcud uçuş-enmə zolağının uzunluğu 3000 metrədək, eni isə 60 metrədək genişləndiriləcək.

EKOLOJİ TƏMİZ UNİVERSİTET ŞƏHƏRCİYİ YARADILACAQ

Prezident Xankəndi şəhərində Qarabağ Universitetində görülən işlərlə tanış olub. Bildirildi ki, ölkənin və regionun ehtiyacları, həmçinin beynəlxalq əmək bazarının müasir trendləri nəzərə alınmaqla, ilkin mərhələdə Qarabağ Universitetində kadr hazırlığı 6 fakültədə - Pedaqoji, İncəsənət, Humanitar və sosial elmlər, İqtisadiyyat, Mühəndislik və Turizm fakültələrində aparılacaq. 2024/2025-ci tədris ili üçün universitetdə ümumilikdə 27 ixtisas üzrə 1120 tələbənin təhsil alması nəzərdə tutulur. Bundan əlavə, universitetdə 8 ixtisas üzrə SABAH qrupları yaradılacaq. Müxtəlif ali təhsil müəssisələrinin birinci tədris ilini (kursunu) bitirmiş tələbələri arasında imtahan və müsahibə keçirilməklə əlavə olaraq 200-250 tələbənin də sentyabrda Qarabağ Universitetinin SABAH qruplarında təhsil alması planlaşdırılır. Bununla bağlı müvafiq elan verilib və qeydiyyat prosesi başlanılıb.

Qarabağ Universitetində təhsil alacaq tələbələr üçün bir sıra imtiyazlar da nəzərdə tutulub. Belə ki, burada təhsil alacaq tələbələr ödənişsiz mənzil tipli yataqxana, təqaüd, həmçinin kompüterlə (notbuk) ilə təmin olunacaqlar. Ən yüksək bal toplayan tələbələrə əlavə təqaüd veriləcək. Tələbələr üçün ekoloji təmiz universitet şəhərciyi yaradılacaq.





XANKƏNDİDƏ HOTELLƏR İSTİFADƏYƏ VERİLDİ

İyulun 5-də Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Qarabağ" və "Palace" hotellərinin açılışı olub. Prezident İlham Əliyev açılışlarda iştirak edib.

Bildirildi ki, "Qarabağ" hotelində Xankəndi şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb. Burada müxtəlif kateqoriyalı otaqlar var. Binada restoran da qonaqların ixtiyarına veriləcək. Hoteldə işgüzar görüşlər və tədbirlər keçirmək də mümkün olacaq.

"Palace" hotelində isə müxtəlif tipli 54 otaq var. Burada ən müasir iaşə məkanları da yaradılıb. Lobbi, açıq və qapalı terras zonalarından ibarət restoranda 300 qonağı qəbul etmək imkanı olacaq.

"İSA BULAĞI" İSTİRAHƏT KOMPLEKSİNİN AÇILIŞI

Prezident İlham Əliyev Şuşaya səfəri çərçivəsində isə "İsa bulağı" istirahət kompleksinin açılışında iştirak edib. Bildirildi ki, Vətən müharibəsindən sonra İsa bulağı Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən tam bərpa edilib. Bulağın özü mərmərdən hazırlanıb, "İsa bulağı" sözləri isə milli ornamentlə yazılıb və bulağın su təminatı da tam bərpa olunub. Bulağın ətrafındakı istirahət mərkəzi və restoran milli üslubda təmir edilib, ərazidə abadlıq işləri aparılıb. İstirahət kompleksində 4 qonaq evi və bir restoran yerləşir.



"AĞILLI SU" SİSTEMİ

Prezident Şuşa sutəmizləyici qurğular kompleksinin açılışında da iştirak edib. Bildirildi ki, 2040-cı ilə Şuşanın perspektiv inkişafı nəzərə alınmaqla hazırlanan su təchizatı, kanalizasiya və yağış suları sisteminin yenidən qurulması layihəsinə əsasən, şəhərin orta günlük su tələbatı saniyədə 105 litr təşkil edəcək. Şəhərə içməli su mövcud Kiçik Kirs, Zarıslı mənbələrindən, həmçinin Zarıslıçay su anbarından veriləcək.

Şəhərin Baş planına uyğun hazırlanmış layihəyə əsasən, Şuşada 24 kilometr magistral su kəməri, 44 kilometr içməli, 42 kilometr tullantı və 41 kilometr yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşan tullantı sularının tam təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 8 min kubmetr olan qurğu inşa ediləcək. Şuşa şəhərində yaradılan yeni infrastruktur "Ağıllı su" sistemi əsasında idarə olunacaq.


Prezident İlham Əliyev Şuşada Aşağı Gövhər Ağa məscidinin, Dövlət Xidmətləri Mərkəzinin bərpadan sonra açılışlarında da iştirak edib.

PREZİDENT İLHAM ƏLİYEV ARTIQ İKİNCİ DƏFƏDİR Kİ, ŞƏT-İN ZİRVƏ TOPLANTISINA DƏVƏT OLUNUR

ŞƏT DÜNYANI DƏYİŞİR

Prezident İlham Əliyevin Astanada ŞƏT sammiti çərçivəsində keçirdiyi görüşlər, imzalanan sənədlər Bakının beynəlxalq səviyyədə mövqelərini daha da gücləndirir. Bu baxımdan Çinlə imzalanan strateji tərəfdaşlığa dair Birgə Bəyannamə xüsusi əhəmiyyət daşıyır.





AQŞİN KƏRİMOV

Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sədri statusunda Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün Azərbaycan Prezidenti İlham Əliyev iyulun 3-də Astanaya səfər edib.

İlham Əliyevin səfəri və apardığı müzakirələr dünyanın təhlükəsizlik və tədarük zəncirlərində qırılmaların olduğu zamanda Azərbaycanın imkanlarının genişləndirməsi fonunda diqqətəlayiqdir.

Prezidentin Astana proqramı Avrasiya materikinin qarşılıqlı anlaşmaya, fundamental təhlükəsizlik tendensiyalarına, səmərəli iqtisadi əməkdaşlığa söykənən arxitekturası üçün aparılan müzakirələrdə Azərbaycanın yerini göstərir.

AZƏRBAYCAN ŞƏT-DƏ NƏ AXTARIR?

ŞƏT qısa tarixi dövrdə müasir qlobal siyasi və iqtisadi dünya nizamının ayrılmaz hissəsinə çevrilərək böyük yol keçib. 2015-ci ildə ŞƏT-ə üzv dövlətlərinin başçıları Şurasının iclasında Azərbaycana tərəfdaş statusun verilməsi ilə bağlı qərar qəbul edilib. 2016-cı ildə Pekində Azərbaycana ŞƏT-in dialoq üzrə tərəfdaşı statusunun verilməsi haqqında Memorandum imzalanıb. 2022-ci ildə isə ŞƏT-in Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə Görüşündə Prezident İlham Əliyev fəxri qonaq qismində iştirak edib.

Astana sammiti də daxil olmaqla, Azərbaycan Prezidenti artıq ikinci dəfədir ki, ŞƏT-ə üzv ölkələrin Zirvə toplantısına dəvət olunur.

Əminliklə söyləmək olar ki, ötən illər ərzində Azərbaycanla ŞƏT-in əməkdaşlığı rəsmi Bakının çoxtərəfli xarici siyasət kursunun ruhuna uyğun şəkildə inkişaf edib.



Təşkilatın ümumi məqsədlərini təsvir etsək deyə bilərik ki, o, Asiya qitəsində regional təhlükəsizliyin qorunub saxlanılması, möhkəmləndirilməsi modeli kimi çıxış edir. Mövcud olduğu illər ərzində ŞƏT dünya miqyasında kifayət qədər siyasi çəki və nüfuz qazanıb.

Azərbaycanın strateji zehniyyəti görür ki, ŞƏT regional və beynəlxalq münasibətlərdə dəyişikliklərə çevik, effektiv reaksiya verən çoxtərəfli strukturdur. Buna görə də Azərbaycan həm təhlükəsizlik, həm siyasi, həm də iqtisadi inkişaf sahəsində modelləri birləşdirməyə çalışan ŞƏT ilə daha sıx əməkdaşlıqda maraqlıdır. ŞƏT-in cazibə qütbünə çevrilməsi Azərbaycana ümumi planda dayanıqlı qazanc gətirir. Azərbaycan-ŞƏT əlaqələri iqtisadi tərəfdaşlıq, nəqliyyat əlaqələri, terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin, sabitliyin təminatı, sivilizasiyalararası dialoqun təşviqi kimi geniş spektri əhatə edir.

Beləliklə, Azərbaycan Avrasiya regionunda təhlükəsizliyi təmin etmək və sabitliyi qorumaq, yaranan çağırışlara və təhdidlərə qarşı mübarizə aparmaq naminə qüvvələri birləşdirmək üçün çoxtərəfli birlik modelinə daxil olur. Bu, Azərbaycanın regional güc kimi dəstək qazanmasını da şərtləndirir.

İLHAM ƏLİYEVİN GÖRÜŞLƏRİNDƏKİ STRATEJİ MƏQSƏDLƏR



Azərbaycan Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizindəki (Orta Dəhliz) imkanlarını və aktivlərini artırır. Nəticədə ŞƏT sistemi çərçivəsində Şimal-Cənub və Şərq-Qərb Beynəlxalq Nəqliyyat dəhlizlərindəki tranzit imkanlarına dəstək qazanır. Burada Azərbaycan həm də üç güc arasındakı manevr imkanlarını genişləndirir. Belə ki, Rusiya Şimal-Cənub nəqliyyat koridorunda Hindistanla müştərək maraqlara malikdir. Şərq-Qərb nəqliyyat şəbəkəsi isə Çinin strateji məramını genişləndirir. Azərbaycan eyni anda hər iki dəhlizdə rol alır və onun bu tutumu rəqib layihələrin başında duran güclərin sinir nöqtələrinə toxunmur. Çünki Azərbaycanın mövqeyi təhlükəsizlik və sabitlik istiqamətində praqmatik yanaşmalara söykənir ki, bu da problem yaratmır.

Prezident İlham Əliyevin ŞƏT sammiti çərçivəsində Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Çin Sədri Si Cinpin ilə görüşlər keçirərək müzakirələr aparması dəhlizlər üzrə strateji məramlara işıq salır.

Bundan başqa, regional təhlükəsizlikdə yeni format və üçtərəfli əməkdaşlıq modeli çərçivəsində İlham Əliyev, Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüş keçirilib.

AZƏRBAYCAN-ÇİN MÜNASİBƏTLƏRİNDƏ YENİ MƏRHƏLƏ

Azərbaycan-Çin münasibətlərində yeni mərhələ ŞƏT-in Zirvə toplantısı çərçivəsində qəbul olunmuş "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" ilə müəyyənləşdirilir. Sənədi konseptual formada təqdim etsək qeyd edə bilərik ki, Azərbaycanla Çin dünyanın müxtəlif yerlərində terror, separatizm fəaliyyətinə qarşı birgə mübarizədə səylərini birləşdirir.

Sənəddə qeyd olunur:

- Tərəflər ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmət, hücum etməmək, daxili işlərə qarışmamaq, bərabərlik, qarşılıqlı fayda və dinc birgəyaşayışa sadiqliyi təsdiqləyirlər,
- Azərbaycan tərəfi "Vahid Çin" prinsipini qətiyyətlə dəstəkləyir, dünyada yalnız bir Çinin mövcudluğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu, Tayvanın isə Çin ərazisinin ayrılmaz bir hissəsi olduğunu tanıyır, istənilən formada "Tayvanın müstəqilliyi"nə qarşı qətiyyətlə çıxış edir və Tayvan boğazının iki sahili arasındakı münasibətlərin dinc inkişafını, habelə Çin Hökumətinin Çinin birləşdirilməsi istiqamətində səylərini dəstəkləyir,
- Çin tərəfi Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və konfrontasiyanın saxlanmasına yönəlmiş geosiyasi intriqaları qeyri-səmərəli hesab edir.

Bunlar Azərbaycan və Çinin üzləşə biləcəyi təzyiqlər zamanı tərəflərin vahid cəbhə xəttindən fəaliyyətinin koordinasiyasına imkanlar tanıyır.

Ümumilikdə Astana Zirvə Görüşü Azərbaycan üçün böyük əhəmiyyət daşıyır. İlham Əliyevin Astanadakı görüşləri zamanı COP29-a ifadə olunan dəstəklər də Azərbaycan üçün xüsusi önəm kəsb edir.

İRƏVAN SÜLH PROSESİNƏ ƏNGƏL YARADAN MƏQAMLARI ORTADAN QALDIRMALIDIR

UĞURLU NƏTİCƏLƏR VAR, AMMA...



Necə ki, dörd il əvvəl Azərbaycan zəfər əldə etməsinə baxmayaraq, dərhal sülh təşəbbüsü ilə çıxış edib, indi də Ermənistan bu şansı əldən buraxmamalıdır. İrəvan ərazi iddialarına qarşı Azərbaycanın hansı cavab reaksiyası verə bilmək iqtidarında olduğunu bir daha xatırlamalı, sülh prosesinə əngəl yaradan məqamları ortadan qaldırmalıdır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan və Ermənistan arasında sülh danışıqları davam edir. Aparılan müzakirələrdə tərəflər fikir ayrılıqlarının azaldığını bəyan etsələr də, bir sıra prinsipial məqamlarda mövqelər fərqli olaraq qalmaqdadır. Lakin proseslərin gedişi göstərir ki, bu fərqlilik ortadan qalxmadıqca, daha doğrusu, rəsmi İrəvan özünün də etiraf etdiyi sülh yolundakı maneələri dəf etmədikcə razılıq mümkün olmayacaq.

İKİTƏRƏFLİ FORMATLA ƏLDƏ OLUNAN NƏTİCƏ

Bu baxımdan Prezident İlham Əliyevin Kanadanın ölkəmizə yeni təyin olunan səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul edərkən sülh prosesi ilə bağlı səsləndirdiyi fikirlər xüsusilə diqqət çəkir. Dövlət başçısı bildirib ki, hazırda ikitərəfli səviyyədə daha yaxşı nəticələr görürük. Kiminsə tərəfindən bu prosesə müdaxilə yoxdur. Sərhədlərin delimitasiyası, hətta nadir hal olan demarkasiya məsələlərində razılıqlara gələ bilirik. Azərbaycan Prezidenti qeyd edib ki, düzdür, hələ sülh müqaviləsi imzalanmayıb, lakin artıq sərhədlərin delimitasiyasına nail olunub.

Əldə olunan nailiyyətlərin başlıca səbəbi prosesə kənar müdaxilələrin olmamasıdır. Yəni, əldə olunan nəticələr danışıqların məhz ikitərəfli formatda - Bakı ilə İrəvan arasında birbaşa təşkilinin nəticəsidir. Bölgədə sülh və sabitliyin təmin olunmasını istəyən kənar qüvvələr prosesin axarına təsir etməmək prinsipini əsas tutaraq ikitərəfli danışıqlar formatına dəstək göstərməlidir. Əks təqdirdə sülh prosesi yenidən çıxmaza sürüklənə bilər.

BU DÖVLƏTLƏR ÜÇÜN BAKININ QAPILARI BAĞLIDIR

Prezidentin görüşdə səsləndirdiyi fikirlərdə diqqət çəkən digər məqam beynəlxalq birliyin bəzi üzvlərinin Azərbaycanın ərazi bütövlüyünə münasibətdə sərgilədikləri mövqe ilə bağlıdır. Onun sözlərinə görə, münaqişə barədə danışan bir çox ölkələr Azərbaycanın ərazi bütövlüyünə sadiqlik bəyan etmirdilər. Prezident İlham Əliyev vurğulayıb ki, indi - biz Ermənistanın işğalçı ordusuna döyüş meydanında qalib gəldikdən və onları torpaqlarımızdan qovduqdan sonra bizim ərazi bütövlüyümüzə dəstəklə bağlı bəyanatlar eşidirik: "Amma biz bunu artıq özümüz təmin etmişik. Kiminsə bizim ərazi bütövlüyümüzü tanıyıb-tanımaması mahiyyət kəsb etmir. Bu, torpaqlarımız işğal altında olan bir dövrdə önəmli idi".



Bəli, Azərbaycan artıq hərbi-siyasi yolla özünün ərazi bütövlüyünü bərpa edib. Tarixi zəfərimizdən sonra beynəlxalq səviyyədə qurulan münasibətlərimiz də məhz bu illər ərzində ölkəmizin ərazi bütövlüyü məsələsində sərgilənən mövqelərə əsasən qurulur. Bölgədə münaqişənin mövcudluğu ilə varlığını təmin etməyə çalışanlar üçün Bakının qapıları bağlıdır. Cənubi Qafqazda əsas söz sahibi Azərbaycandır və burada hansısa səviyyədə mövcudluq məhz rəsmi Bakı ilə qurulan münasibətlərdən asılıdır.

SÜLH ÜÇÜN VAXT LAZIMDIR


Prezident İlham Əliyev əslində sülh danışıqları prosesinin axarının hansı istiqamətə yönəldiyini də açıqlayıb. Müzakirələrin ümumi fonu barədə təsəvvür yaradıb və gözləntilərin hansı səviyyədə olmasının sərhədlərini göstərib. Onun sözlərinə görə, bunu anlamaq önəmlidir ki, 28 illik bir dövrdə razılaşdırıla bilməyən məsələlərin 1-2 ilə həll edilməsi çətindir: "Həm də Azərbaycan ilə Ermənistan arasında substantiv danışıqlara demək olar ki, dekabr ayında başlanılıb. Çünki ondan əvvəl Ermənistan sülh müqaviləsinə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini salmaq istəyirdi və bu, qəbuledilməz idi. Çünki bu, bizim daxili məsələmizdir. Beləliklə, separatçı rejim ləğv edildikdən sonra dekabr ayından başlayaraq danışıqlar cəmi altı aydır gedir. Buna zaman lazımdır".

Göründüyü kimi, danışıqlar prosesində bu vaxta qədər razılaşdırılmış məqamların İrəvan tərəfindən qəbul edilməsi Bakının hərbi-siyasi yolla yaratdığı reallığın nəticəsidir. İrəvan məğlub olsa da, hər vasitə ilə bölgədə gərginlik ocağının qalmasına səy göstərib. Təbii ki, bu məsələdə onları ruhlandıran məqam məhz yuxarıda qeyd etdiyimiz bölgədə münaqişənin varlığı hesabına öz mövcudluqlarını təmin etməyə çalışan bəzi dövlətlərin verdiyi vədlər olub. Lakin İrəvan bu zaman kəsiyində bir daha anladı ki, sülh naminə artıq Bakının haqlı tələblərini qəbul etməkdən başqa yolu qalmayıb.

İRƏVANDAN ƏSAS TƏLƏBİMİZ - KONSTİTUSİYANI DƏYİŞ!

İndi isə sülhün başlıca şərti. Artıq tərəflər arasında hansı məsələlərdə fikir ayrılıqlarının qaldığı heç kimə sirr deyil. Söhbət Ermənistan qanunvericiliyində Azərbaycana qarşı ərazi iddialarının mövcudluğundan gedir. Hətta İrəvan özü də bəyan edir ki, bu iddialar sülh sazişinə maneə yaradır. Lakin bu maneələri aradan qaldırmağa səy göstərmir. Prezident İlham Əliyev isə açıq şəkildə Bakının sülh şərtini bəyan edir: "Sülh sazişinin başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir. Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq. Bu, məlum məsələdir".

İrəvan bu məsələdən yayınmağa çalışır. Baş nazir Nikol Paşinyan və komandasının məlum addımı atmaması bəlkə də daxili siyasi mühitlə bağlıdır. Lakin sülh istəyən tərəf qəti addımlar atmaq iqtidarında da olmalıdır. Necə ki, Bakı dörd il əvvəl möhtəşəm zəfər əldə etməsinə baxmayaraq dərhal sülh təşəbbüsü ilə çıxış etdisə, indi İrəvan da bu şansı əldən buraxmamalıdır. Ərazi iddialarına qarşı Azərbaycanın hansı cavab reaksiyası verə bilmək iqtidarında olduğunu bir daha xatırlamalı, sülh prosesinə əngəl yaradan məqamları ortadan qaldırmalıdır.





PAŞİNYAN ÜÇÜN Avropa İttifaqı tələsi

Ermənistanın Avropa İttifaqına üzv ölkələrlə ticarət dövriyyəsi azalır. Əvəzində Avrasiya İqtisadi İttifaqı çərçivəsində ticarət dövriyyə artır. Hazırda Aİİ ilə ticarət dövriyyəsi illik 7-8 milyard dollar təşkil edir ki, bu da Ermənistan üçün çox ciddi rəqəmdir.

FUAD ABASOĞLU

Ermənistanın baş naziri Nikol Paşinyan bir neçə aydır sadə vətəndaşı Avropa İttifaqına (Aİ) üzvlüklə bağlı nağıllarla yemləsə də, real mənzərə başqa həqiqəti ortaya qoyur. Əslində üzvlük məsələsi erməni dövləti üçün Qərb siyasi texnoloqları tərəfindən hazırlanmış tələdən başqa bir şey deyil. Əsas məqsəd Ermənistan-Rusiya münasibətlərini sonlandırmaqdır. Növbəti mərhələdə isə rus hərbi bazalarını Ermənistandan çıxarmaq, öz hərbçilərini əraziyə yerləşdirməklə İranı daha yaxşı müşahidə etmək planları var. Paşinyanın partiyası buna göz yumaraq, növbəti seçkilərdə də iqtidarda qalmaq üçün bir sıra media orqanları vasitəsilə xalqa Aİ-yə üzvlük nağılını sırımaqla gününü keçirir.



DEMOKRATİYANIN TƏNƏZZÜLÜ

Bir sıra beynəlxalq hüquq-müdafiə təşkilatları Ermənistanda demokratiyanın tənəzzülünü artıq sənədləşdirib. Bu sıraya polisin qanunsuz hərəkətləri, zorakılıq və işgəncələr, müxalifətin qeyri-qanuni təqibi, regionlarda seçilmiş müxalifət liderlərinin işdən çıxarılması daxildir. Məlum vəziyyət iqtidar tərəfindən hakimiyyətin qəsb edilməsi və mərkəzləşdirilməsinə hesablanıb. Təbii ki, bu hesabatlar müxtəlif Avropa qurumlarına da göndərilir.

XARİCİ TİCARƏT FİASKOSU

Hər kəs anlayır ki, Aİ-yə üzvlük məsələsi hazırda Ermənistan üçün xülyadan başqa bir şey deyil. Heç orada da Ermənistanı gözləyən yoxdur. Çünki Avropaya inteqrasiya üçün rəsmi İrəvan tənəzzülə uğramış sənaye və kənd təsərrüfatında ciddi islahatlar aparmalıdır. Eyni zamanda, son dövrlər Ermənistanın Qərb ölkələri ilə aparılan xarici ticarətində də ciddi azalma qeydə alınıb. 2024-cü ilin ilk dörd ayının məlumatlarına görə, Ermənistanın Aİ ölkələri ilə ticarət həcmi 24.3 faiz azalıb. Azalma Almaniya ilə 148 milyon dollar, yəni 35.8 faiz, Fransa ilə 42 milyon dollar, yəni 17 faiz təşkil edib. ABŞ-yə gəldikdə isə, bu azalma birdən-birə 39 faiz, yəni 144 milyon dollar olub.

RUSİYAYA QARŞI KAMPANİYA

Əldə edilən son məlumatlara görə, Aİ son iki ildə müxtəlif erməni KİV-lərinə anti-Rusiya təbliğatı üçün 20 milyon dollar vəsait ödəyib.

Bundan əlavə, siyasi kulislərdə gəzən söhbətlərə görə, Aİ-yə üzvlüklə bağlı referendum təklifi də əslində rəsmi Moskvaya qarşı münasibətləri ehtiva edir. Düzdür, Paşinyan referenduma ehtiyac olmadığını desə də, hakim partiya bunda təkid edir. Baş nazir gözəl bilir ki, müxalifət də referenduma gediləcəyinə israr edəcək. Ehtimal etmək olar ki, referendumda Rusiyanın hərbi bazalarının ölkədən çıxarılması, erməni dövlətinin KTMT-dəki üzvlük məsələsi də səsverməyə çıxarıla bilər. Bununla da Paşinyan məsuliyyəti sadə erməni vətəndaşının üzərinə yıxmağa çalışacaq. Hələlik mətbuat vasitəsilə alt bazanı formalaşdıran hakim partiya sonradan referendum vasitəsilə məsələni kökündən həll etmək niyyətindədir.

SÜNİ VƏDİN FƏSADLARI

Ermənistanda Aİ-də rəqabətədavamlı olacaq heç bir məhsul yoxdur. Bu səbəbdən də dövlət üçün həyati əhəmiyyət daşıyan iqtisadi birliklər süni vəd müqabilində itirilə bilər. Artıq hakim partiyanın təbliğatı ilə elə bir təəssürat yaranıb ki, Aİ-yə üzvlüklə bağlı Ermənistana dəvət göndərilib və bunun hansı formada baş tutması müzakirə olunmalıdır. Bu gün isə Ermənistanla Avrasiya İqtisadi İttifaqı (Aİİ) arasında ticarət dövriyyəsi artmaqda davam edir. Hazırda Aİİ ilə ticarət dövriyyəsi 7-8 milyard dollar təşkil edir ki, bu da Ermənistan üçün çox ciddi rəqəmdir.

Sirr deyil ki, Aİİ-də mövcudluqla eyni vaxtda Aİ ilə əlaqələrin inkişafı üst-üstə düşmür. Çünki Rusiyanın rəhbərlik etdiyi Aİİ hər nə qədər iqtisadi alyans olsa da, siyasi komponentlərlə zəngindir. Aİ isə həm iqtisadi, həm də siyasi qurum olduğunu heç vaxt gizlətməyib. Paşinyan isə bir əldə iki qarpız tutmaq yolunu seçib. Amma anlamaq lazımdır ki, eyni anda bir-birinə düşmən iki iqtisadi və siyasi komponenti olan qurumlarda təmsilçilik qeyri-mümkündür.

Aİ-DƏ ERMƏNİSTANI GÖZLƏYƏN YOXDUR

Diplomatik mənbələrə və yayılan xəbərlərə baxanda da müşahidə edilir ki, hazırda Avropada Ermənistanı gözləyən yoxdur. Bəzi diplomat və səfirlər etiraf edirlər ki, Brüsseldə onlara yaxınlaşıb üzvlük təklif edən olmayıb. Erməni tərəfi isə 10 ildən çoxdur ki, kulis arxasında, qəbullarda və ziyafətlərdə bu mövzuya dəfələrlə toxunub. Bu gün Aİ-nin kifayət qədər problemi var. Ermənistandan əvvəl Ukrayna, Gürcüstan və Moldova bu qapıda gözləyir. Bundan əlavə, Aİ-yə mümkün üzvlüklə bağlı danışıqlar prosesinin başlanması bir sıra addımları, ilkin şərtləri, uyğunluğu nəzərdə tutur.

Bütün bunları ümumiləşdirsək, hazırda Ermənistanın Aİ-yə üzvlük məsələsi ilə bağlı söhbətlər sırf siyasi məqsədlər daşıyır. İqtisadi cəhətdən Ermənistanı məhvə aparacaq bu məsələ, hələlik Paşinyan hakimiyyətinin vecinə deyil. İndi onun komandası üçün əsas məqsəd xalqın gözünə kül üfürməklə Qərbin siyasi doktrinasını icra etmək, Rusiya hərbi bazalarını ölkədən çıxarmaqdır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az



FRANSIZLAR MAKRONLA vidalaşmaq fikrindədirlər

Seçkinin birinci turu göstərdi ki, Fransa əhalisi illərdir ölkənin aktual problemlərini həll edə bilməyən siyasi elitasından narazıdır və buna görə də ona səs verməmək qərarına gəlib. Bu qənaəti fransız mediası və siyasi ekspertlər də bölüşürlər.



AZƏR NURİYEV

İyulun 7-də Fransada növbədənkənar parlament seçkilərinin ikinci turu keçiriləcək. Nəticələr ölkə və qitə üçün yaxşı heç nə vəd etmir, hətta gələcəkdə vətəndaş müharibəsinin baş verə biləcəyindən də danışılır. Ölkədə millətçi, antimiqrant baxışların tərəfdarları sürətlə artır. İqtidar partiyasının məğlubiyyətinin səbəblərinə gəldikdə, bunlar bəllidir - Emmanuel Makron hökuməti həm ümumi strateji siyasətdə, həm də iqtisadiyyatda ciddi səhvlərə yol verib. Marin Le Penin lideri olduğu "Milli Birliy"in isə növbəti uğur qazanacağına şübhə yoxdur. Aşırı sağçı "Milli Birlik" parlament seçkilərinin ilk raundunda qələbə qazanıb. Bu partiya iyulun 7-də keçiriləcək ikinci turda səslərin mütləq çoxluğunu qazanarsa, İkinci Dünya müharibəsindən bəri ilk dəfə Fransanın radikal sağçı hökuməti olacaq. İkinci tur "Milli Birliy"in hökuməti formalaşdırması ilə nəticələnməsə belə, onların qələbəsi son illər ərzində Fransada baş verən ən böyük siyasi qarışıqlığa səbəb ola bilər.

ƏHALİ İQTİDARIN İKİÜZLÜ SİYASƏTİNDƏN YORULUB

Ən mühüm nəticə odur ki, Fransa özünün yeni yolunu seçmək qərarına gəlib. Daha doğrusu, fransızlar artıq Makronla vidalaşmaq qərarını veriblər. Fransada Avropa Parlamentinə seçkilərdə sağ təmayüllü millətçi partiyaların qalib gələrək üstünlük əldə etməsi də göstərdi ki, Makronun yürütdüyü siyasət tam olaraq iflasa uğrayıb. Bu onu göstərir ki, fransızlar Makron iqtidarının ikiüzlü siyasətindən yorulublar.



MAKRON ÇARƏSİZ DURUMDA

Bir faktı da qeyd etmək yerinə düşər ki, iyunun 30-da, birinci turda seçkidə fəallıq qeyri-adi dərəcədə yüksək olub - 65 faiz. Sonuncu dəfə belə hal 1997-ci ildə baş vermişdi, o zaman seçicilərin 68 faizi seçki məntəqələrinə getmişdi. Qeyd edək ki, birinci turda heç bir partiya Fransa parlamentinin 577 yerlik aşağı palatasında çoxluğu qazanmayıb. "Milli Birlik" Partiyasının səs çoxluğu əldə etməməsi üçün "Respublika naminə birlikdə" prezident koalisiyasından və Yeni Xalq Cəbhəsi solçu blokundan deputatlığa namizədlər namizədliklərini geri götürüblər. "185 namizəd seçkilərdən imtina edib. İkinci turda iştirakdan solçulardan 121, prezident koalisiyası və digər partiyalardan 60 nəfər imtina edib", - məlumatda qeyd olunub. "Milli Birliy"in çoxluğu qazanmasına imkan verməməkdən ötrü artıq Marin Le Penə qarşı "respublikaçı cəbhələr" yaratmaq səylərinə başlanıb. Makron özünün mərkəzçi "Birlikdə" alyansını dəstəkləyən seçiciləri partiyanın üçüncü olduğu dairələrdə "respublikaçı və demokrat" namizədləri dəstəkləməyə çağırıb.

BARDELLA BAŞ NAZİR OLACAQ?

Beləliklə, seçkinin birinci turu göstərdi ki, Fransa illərdir ölkənin aktual problemlərini həll edə bilməyən siyasi elitasından narazıdır. Bu qənaəti fransız mediası və ekspertləri də bölüşürlər. Məsələn, Avropa Siyasət Mərkəzinin təhlilçisi Erik Moris hesab edir ki, hər şey solla mərkəzin seçkini üçüncü bitirib ikinci tura keçən namizədlərini geri çəkməyə razılaşmasından asılı olacaq. Bu nə qədər çox baş verərsə, "Milli Birliy"in mütləq çoxluq əldə etmək imkanı bir o qədər az olacaq.

Başqa bir ssenari isə Makronun partiyası ətrafında qurulmuş koalisiya hökuməti ola bilər. Ancaq bir çoxları Makronun hər hansı birlik hökuməti qura biləcəyinə inanmırlar. "Milli Birlik" ikinci turdan da qalib çıxarsa, partiyanın rəhbərlərindən biri olan Jordan Bardella baş nazir olacaq və prezident Makronla hakimiyyəti bölüşəcək. 28 yaşlı siyasətçi artıq özünü baş nazir kimi görür. O, hətta müvafiq açıqlama da verib: "Əgər seçicilərin sayəsində mütləq səs çoxluğu əldə etsək, mən bütün Fransa xalqının baş naziri olmağa hazıram".

MAKRONUN UĞURSUZLUĞU AVROPA İTTİFAQINA NƏ VƏD EDİR?

Bəs "Milli Birliy"in qələbəsi Avropa İttifaqı üçün nə deməkdir? Hesab edilir ki, əgər Avropa İttifaqının sağa doğru sürüşməsi üçün uyğun vaxt varsa, o vaxt indidir. "Milli Birliy"in təsiri Aİ-nin istixana qazları və çirkrlənmənin azaldılmasını və dayanlıqlı inkişafın dəstəklənməsini hədəfləyən "yaşıl kurs"unun müxtəlif aspektlərini sınağa çəkə bilər. "Milli Birlik" Aİ-nın çevrə ilə bağlı qanunlarına qarşı kampaniya aparıb, bu qanunların iş yerlərinə və Fransa sənayesinə ziyan vurduğunu iddia edib. Miqrasiya hələ də "Milli Birliy"in əsas fokus nöqtəsidir. Partiya bu sahədə nəzarətin sərtləşdirilməsini və sosial güzəştlər, ev və iş məsələlərində Fransa vətəndaşlarına üstünlük verilməsini istəyir. Hazırda Aİ qanununa görə, belə tədbirlər qanunsuz sayılır. "Milli Birliy"in yekun turdakı qələbəsi Aİ-dəki aşırı sağçı partiyaların taktiki xətt dəyişikliyinə getməsinə səbəb ola bilər. Le Penin partiyası son illərdə Aİ ilə bağlı mövqeyini dəyişib. İndi o, əvvəlki kimi "Freksit" (ayrılma) çağırışları etməkdənsə, Aİ-də içəridən islahat apararaq onu öz sağçı baxışlarına daha da yaxınlaşdırmaq məqsədi güdür.

İndi əsas məsələ ondan ibarətdir ki, səlahiyyət müddətinin bitməsinə üç il qalmış Makron prezident kimi müxalif siyasi qüvvələrin koalisiyası ilə dil tapa və ölkəni idarə edə biləcəkmi?



TAKSİLƏRLƏ BAĞLI YENİ QAYDALAR ŞƏHƏR SAKİNLƏRİNƏ NECƏ TƏSİR EDİB?

DƏYİŞƏN ANCAQ QİYMƏTLƏRDİR

Sərnişinlər taksilərin bahalaşması müqabilində keyfiyyətin aşağı olmasından şikayətçidirlər. Ekspertlər atılan addımları zəruri hesab edirlər. Rəsmi qurum isə qaydaları pozanların cərimələnəcəyi ilə bağlı xəbərdarlıq edir.





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Taksilərlə bağlı dəyişikliklər ötən həftədən qüvvəyə minib. Hazırda taksi fəaliyyəti üçün icazə alanlar 11 696, təlim keçənlər 24 482 nəfərdir. Tələblərə cavab verməyən taksi sürücülərinin profilləri isə xarici taksi operatorları tərəfindən bloklanır. Maraqlıdır, hazırda Bakıda taksi fəaliyyəti ilə bağlı vəziyyət necədir? Bu dəyişiklik qiymətlərə və keyfiyyətə təsir edibmi?

NƏ KEYFİYYƏT VAR, NƏ DƏ TAKSİ...

Mütəmadi olaraq taksilərdən istifadə edən Leyla deyir ki, keyfiyyət olmasa da, əvvəl taksi tapa bilirdik. İndi nə keyfiyyət var, nə də taksi...

Ceyhun əvvəl 4.30 manata getdiyi yol üçün indi 8.60 manat ödədiyini deyir. Amma o, bunu normal qəbul edir. Deyir ki, normal qiymət indidir. Taksi xidməti o qədər ucuz olmalı deyildi.

Hazırda fəaliyyət göstərən və icazə alan taksi sürücüləri vəziyyətdən razıdırlar. Deyirlər ki, artıq bu qərarlarla yalnız peşəkar sürücülər taksi fəaliyyəti ilə məşğul ola biləcəklər.

Sərnişinlər ümumilikdə, beş manatlıq yolu səkkiz manata, dörd manatlıq yolu yeddi manata, üç manatlıq yolu altı manata getdiklərini bildirirlər.

Nəqliyyat eksperti Eldəniz Cəfərov "Kaspi" qəzetinə açıqlamasında bildirir ki, vətəndaşlar ötən il taksi xidmətlərinin çox ucuz olmasını dilə gətirir, sosial şəbəkələrdə bununla bağlı xeyli zarafatyana ifadələr işlədirdilər. İndi isə qiymətlərin artmasından şikayətlənirlər: "Eyni zamanda, haqlı olaraq, taksinin keyfiyyətsiz xidmət göstərdiyini və təhlükəli olduğunu da dilə gətirirdilər. Müvafiq qurumlar və taksi şirkətləri də vəziyyəti araşdırdılar və nəticə çıxardılar ki, taksi xidməti bu qədər ucuz olmamalıdır. Halbuki, taksi xidmətləri ucuz yox, sadəcə hər kəs üçün əlçatan idi. Hansı ki, bütün dünyada taksi tarifləri tələblərə görə artıb, azalır. Bizdə də qiymətlər belə tənzimlənirdi. Hazırda ötən illə müqayisədə taksi qiymətləri 100 faizdən çox bahalaşıb".

HAMI ÜÇÜN ƏLÇATAN OLMALIDIR

Mütəxəssis düşünür ki, qiymətlər bazar iqtisadiyyatı əsasında formalaşmalı, heç bir halda süni müdaxilələr edilməməlidir: "Taksi qiymətləri əhalinin bütün təbəqələri üçün əlçatan olmalıdır, necə ki, bu, bir çox ölkələrdə belədir. Bizimlə eyni səviyyəli olan ölkələrdə də taksi bütün təbəqələr üçün əlçatandır. Bu səbəbdən kəskin qiymət artımının əleyhinəyəm. Keyfiyyət və təhlükəsizliyə müdaxilə edilməlidir, amma qiymətə süni müdaxilə olmamalıdır.

Hazırda dövlət artıq bir sıra qanunlar qəbul edib, taksidən istifadə edən vətəndaşların keyfiyyətli və təhlükəsiz hərəkətini təmin etmək üçün müəyyən rıçaqlar yaranıb. Ölkədə fəaliyyət göstərən xarici taksi operatorları da artıq bu işə daha ciddi yanaşırlar".

İCTİMAİ NƏQLİYYAT BU YÜKÜ QALDIRA BİLƏCƏKMİ?

"Taksilərin azlığı və qiymət artımı ictimai nəqliyyatın yükünü artırırmı" sualına gəldikdə isə, E. Cəfər bildirir ki, hazırkı vəziyyət insanları metro və avtobusdan daha çox istifadə etməyə sövq edir: "İndi yay mövsümü olduğu üçün biz hələ çox problemləri müşahidə etmirik. Amma ümid edirik ki, payızda yeni dərs ilində ictimai nəqliyyatda həm metro qatarlarının, həm də avtobusların sayı artırılacaq. Artıq müvafiq qurumlar payızda təxminən 150 ədəd yeni elektrobusların ölkəyə gətiriləcəyini və ictimai sektorda fəaliyyət göstərəcəyini elan edib-lər".



QİYMƏTİ BAHA, KEYFİYYƏTİ YÜKSƏK OLMALIDIR

Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəqliyyat fakültəsinin baş müəllimi Bulud Bağırov isə taksi xidmətinin ucuz olmasının tərəfdarı deyil. Deyir ki, taksinin xidməti baha, keyfiyyəti yüksək olmalı, insanların əksəriyyəti ictimai nəqliyyata yönəlməlidir: "Əvvəl bir manat, bir manat əlli qəpiyə taksilər fəaliyyət göstərirdi. İnsanlar taksidən avtobus qiymətinə istifadə edirdilər. Məhz bu səbəbdən şəhərə baxdıqda görürdük ki, on maşından səkkizi taksidir. Ucuz ətin şorbası olmur. Taksi xidməti ucuz olmalı deyil. Bakı şəhərində 65 minə yaxın taksi sürücüsü var idi. Bu, fantastik rəqəmdir və doğru deyil".

BU ADDIMLAR ATILMALIDIR

B.Bağırov deyir ki, şəhərdə taksilərin sayı azalmalı, ictimai nəqliyyat inkişaf etdirilməlidir: "İctimai nəqliyyat inkişaf etsə, insanlar taksidən istifadə etməyəcək və şəhərdə də maşınların sayı azalacaq. Xarici təcrübədə də belədir. Mən bir seminarda iştirak edirdim, onlar öz ölkələrində həyata keçirdikləri təcrübəni bizimlə bölüşdürdülər. İctimai nəqliyyata tələbatı artırmaq üçün onlar ictimai nəqliyyatda gediş haqqını bir müddət pulsuz ediblər. Şəhərdəki gənclərin də əksəriyyətinə pulsuz skuterlər, velosipedlər paylayıblar. Beləliklə, insanlar şəxsi avtomobillərdən, taksilərdən imtina ediblər. Avtomobil az olduğu üçün şəhərin havası da təmiz olur. Şəhəri insanyönümlü etmək üçün bu addımlar atılmalıdır. Bizdə velosiped yolları çəkiləndə insanların əksəriyyəti etiraz edirdilər ki, yol daralır. Amma yolun bir zolağının velosipedə verilməsi tam normaldır".

İNZİBATİ TƏNBEH TƏDBİRLƏRİ GÖRÜLƏCƏK

Hələ də köhnə taksilərin, xüsusilə də, "prius"ların fəaliyyət göstərdiyi iddiasına gəldikdə isə, AYNA-dan bildirilib ki, taksi minik avtomobili vasitəsilə sərnişindaşımalarla məşğul olmaq istəyənlər müvafiq icazələr əldə edərək fəaliyyətlərini davam etdirirlər. "E-taksi" xidməti vasitəsilə sifarişi qəbul edən sürücünün icazəsinin olub-olmadığını izləmək mümkündür. Əməkdaşlar tərəfindən buraxılış kartlarının yoxlanılması həyata keçiriləcək. İcazəsi olmayan hüquqi şəxslər və ya fərdi sahibkarlar, eyni zamanda icazəsi olmayan şəxslərə sifariş ötürən taksi operatorları barəsində İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati tənbeh tədbirləri görüləcək.

YUNANISTAN VƏ TÜRKİYƏ ÇEMPİONU OLAN AZƏRBAYCAN MİLLİSİNİN FUTBOLÇUSU AYŞƏN ƏHMƏDOVANIN MARAQLI HƏYAT HEKAYƏSİ

“ATAM BUNU TƏHSİLLƏ İSTƏYİRDİ, MƏN FUTBOLLA ETDİM...”



SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Ayşən Əhmədova: “Qadın futbolla məşğul olur, hamı qınayır. Onun fikrini anlamaq istəyən yoxdur. Hər insan necə xoşbəxtdirsə, elə yaşamalıdır. Kimisi üçün xoşbəxtlik bozbaş bişirmək, kimisi üçün ev qadını olmaq, kimisi üçün də futboldur”.

Futbolun nə olduğunu bilməyən, televizorda belə izləməyən 11 yaşlı qızcığaz məktəbin futbol komandasına seçilir. O qədər yaxşı oynayır ki, həmin il məktəblərarası yarışda çempion olurlar. Bundan sonra ailə qızları ilə bağlı fərqli arzulara sahib olsa da, bütün planlarını dəyişmək məcburiyyətində qalır. Övladlarını 11 yaşından sonra futbol meydançalarında, turnirlərdə, hətta ölkə xaricində dəstəkləyirlər. Onunla çempion olur, məğlubiyyəti yaşayırlar. Müsahibimiz Yunanıstanda və Türkiyədə təmsil etdiyi komanda ilə çempionluq yaşayan Azərbaycan millisinin futbolçusu Ayşən Əhmədovadır.

“FUTBOLU OYNAYARAQ ÖYRƏNDİM”

● Necə oldu ki, futbol haqqında məlumatın olmadığı halda məktəbin futbol komandasına seçildiniz?

● Evimizdə futbola baxan yoxdur, atamın belə, məndən öncə bu oyunla maraqlandığını görməmişəm. Bu səbəbdən futbol on yaşıma qədər həyatımda olmayıb. Ta ki, seçildiyim günə qədər... Bakıda 163 nömrəli məktəbin dördüncü sinfində oxuyurdum, məktəblərarası yarışlar keçirilirdi. Seçilən komandada oğlanlarla yanaşı, mütləq şəkildə bir qız da olmalı idi. Sırf boyum bir az hündür olduğuna görə məni seçdilər. Futbolu oynayaraq öyrəndim. Həmin il bizim məktəb bu yarışın çempionu oldu.

● Ulduzunuz o vaxt parıldamağa başladı...

● Bəli, maraqlı təsadüf idi. Hazırda milli komandada fəaliyyət göstərən məşqçilər o vaxt bu turnirlərdə qızların oyunlarını izləyirdilər. Məni final oyununda görüb, bəyəniblər. Bundan sonra “Təhsil” adlı kluba dəvət aldım. Məşqlərimiz intensiv idi, demək olar ki, hər gün futbolla məşğul olurdum. Bu da təhsilimə, qiymətlərimə ciddi şəkildə təsir edirdi. Bundan sonra atamın baryeri ilə mübarizəm başladı. Atam məni dərslərimi oxumadığım üçün futboldan uzaqlaşdırmağa çalışırdı. Çünki o, qızının oxumasını, təhsil almasını futboldan üstün tuturdu.

“ATAM ƏSLİNDƏ MƏNİ QORUMAQ İSTƏYİRDİ”

● Sizcə, o vaxt atanız haqlı idi?

● Əlbəttə, onun bu düşüncəsini anlayırdım və haqq verirdim. Ailəm əvvəl futbola məhəbbətimi uşaqlıq enerjisi, marağı kimi düşünürdü. Onlar bu fəaliyyətin peşəkarlığa çevriləcəyini gözləmirdilər. Azərbaycanda valideynlər çox dominantdır, uşaqlarını özləri idarə etməyi sevirlər. Hər bir azərbaycanlı ailə kimi bu, bizdə də belə idi. Atam əslində məni qorumaq istəyirdi. Onun mənimlə bağlı planları ali təhsil alıb, yaxşı yerdə işləməyim idi. Futbolun gələcəkdə nə gətirəcəyini bilmir, bu peşənin nə dərəcə davamlı olacağından əmin deyildi. Ona görə də qorxur, məni uzaqlaşdırmağa çalışır, “oxu, oxu, oxu” deyirdi. Valideynlərimi bu baxımdan haqlı bilir, anlayıram. Amma onlar da övladlarının daxilindəki qığılcımı kəşf etmələrinə imkan verməlidirlər.

> “Həqiqətən bir insan bir şeyi istəyirsə, ona kainat belə mane ola bilməz. “İstədim, ailəm qoymadı” sadəcə dildədir. Sən istəsən, ailəni də razı salarsan. Deməli, yetəri qədər istəməmisən.”



● Futbol içinizdəki qığılcım idi, bəs təhsil sizin üçün nə ifadə edirdi?

● Uşaq vaxtı futbola gedəndə içimdə qəribə həyəcan yaranırdı. Hansı ki, o həyəcanı uşaqlıqda heç vaxt hiss etməmişdim. Bu gün də mənim ən böyük həyəcanım odur. Düzü, heç bir dərsdən bu zövqü almırdım. Oyun oynayanda o qədər gözəl duyğular yaşayırdım ki... Həmin vaxt paralel olaraq hazırlıqlara da gedirdim, amma bu məcburi idi, məqsəd yaxşı qiymət almaq idi. Futbola isə istəyərək, can ataraq qaçırdım. Oxumağı yox, bunu seçmək istədim. O vaxt da mənim üçün vacib olan xoşbəxt olduğum yerdə olmaq idi, indi də...

“GÜNLƏRLƏ YEMƏK YEMƏDİM”

● Bəs təhsil almağınız üçün sizinlə ciddi şəkildə mübarizə aparan atanıza necə qalib gəldiniz?

● Çox uzun mübarizələrdən sonra biz anlaşdıq və qərarımı dəstəklədilər. Məqsədimə çatmaq üçün günlərlə yemək yemədim. Evdə artıq mənə nə isə olacağını düşünür, narahat olurdular. Xüsusilə atam mənə qıymırdı, çox həssasdır. Sonra anamla danışdılar ki, belə olmaz, uşaq yemək yemir, nə istəyirsə, onu etsin. Ondan sonra peşəkar fəaliyyətim başladı.

● Sizcə, yaxşı futbolçu olmaq üçün ancaq sevmək kifayətdir?

● İlk növbədə sevgi, ikinci sırada isə çalışqanlıq dayanır. Böyük klublarda oynamış, çempionluq yaşamış biri kimi deyə bilərəm ki, futbol asan deyil və çox yorucudur. Hər gün davamlı məşqlər, hər həftə oyun.... Bəzən elə olurdu ki, bu gün təyyarədən Azərbaycana düşürdüm, sabah Türkiyəyə çağırırdılar. Ailəndən ayrısan və çox darıxırsan. Məsələn, ananın evdə gətirdiyi adi çayın belə həsrətini çəkirsən. Çünki içdiyin çay ana çayı deyil. Həvəsim olmasa və sevməsəydim, davam gətirə bilməzdim. Bəzən insanlar deyir ki, kefdəsiniz, ölkələri gəzirsiniz. Amma belə deyil. Biz milli komanda ilə hansısa ölkəyə getdikdə, çox stressli oluruq. O stressi, uduzanda insanların tənqidini qaldırmaq lazımdır. Xarakterin güclü olmalıdır ki, sən futbolda təməli qoya, istədiyin nəticəni ala bilərsən.

“ÖZ AYAQLARIMIN ÜZƏRİNDƏ DURMAĞI BACARIRAM”

● Atanızın arzusu öz ayağının üzərində durmağı bacaran, heç kimə möhtac olmayan qız yetişdirmək idi. Futbol onun bu arzusunu reallaşdırdımı?

● Atam bunu bizə o qədər təlqin etmişdi ki, uşaqlıqdan özüm də düşünürdüm ki, öz ayağımın üzərində durmağı bacarmalıyam. Atam bunu təhsillə istəyirdi, amma mən futbolla etdim. Hazırda futboldan ayaqlarının üzərində dura biləcək qədər pul qazanmaq mümkündür. Bu da bir peşədir, həm zövqlə işini görür, həm də qazanırsan. Məsələn, mən 18 yaşım olanda ilk dəfə legioner həyatı yaşadım. A milli ilə ilk dəfə Qazaxıstana getdim. Dizim əzildiyi üçün əməliyyat olundum. Bu, mənim səkkiz ayımı aldı. Sağaldıqdan sonra “ALG Türkiyə” klubuna getdim. Burada bir mövsüm keçirdik və üçüncü olduq. Mövsümün sonunda Rusiyaya - “Rubin Kazan”a transfer oldum. Burada bir mövsüm keçirdikdən sonra Türkiyəyə qayıtdım və “Çaykur Rizespor”da oynamağa başladım. Sonra çempion olduğum “Fomget Gənclik ve Spor” klubuna transfer oldum. Daha sonra Yunanıstanın PAOK klubunda fəaliyyətimi davam etdirdim, indi də Rusiyaya getməyə hazırlaşıram.

● Peşələrin cinslərə bölünməsinə münasibətiniz necədir? Məsələn, futbolçu ölkəmizdə əksər insanlar tərəfindən kişi peşəsi kimi qəbul olunur. Futbol oynadığınız üçün qınanılmısınız?

● Çox qınanılmışam. Əslində, mən də qadın və kişinin eyni olması ilə razı deyiləm. Düşünürəm ki, bu həyatda kişinin və qadının vəzifələri, icra edə biləcəkləri fərqlidir. Amma futbolu buraya aid etmirəm. Biz qadın futbolunu oynayırıq, kişi futbolunu deyil. Kişi futbolundakı sərtlik qadın futbolunda yoxdur. Düzdür, sərt oynadığımız yerlər olur, amma futbolu kişi kimi oynayacağımızı düşünmürəm. Ümumiyyətlə, hər bir insan xoşbəxt olacağı işi görməlidir. Məsələn, mən bu gün qadın olduğum üçün futbolu atıb başqa bir işlə məşğul olsam, tükənərəm və işimi sevmərəm. Bizim problemimiz insanları dinləyib, fikirlərinə hörmət etməməkdir. Məsələn, qadın futbolla məşğul olur, hamı qınayır. Onun fikrini anlamaq istəyən yoxdur. Hər insan necə xoşbəxtdirsə, elə yaşamalıdır. Kimisi üçün xoşbəxtlik bozbaş bişirmək, kimisi üçün ev qadını olmaq, kimisi üçün də futboldur. Ətrafın fikirləri bizim üçün etalon olmamalıdır.



Fotolar: Rüfət Mikayılov/Global Media Group

“KİMSƏ İSTEDADINI İÇİNDƏ BOĞURSA...”

● Xüsusilə, futbol sahəsində öz qığılcımını daxilində özləri söndürən qızlar çoxdur...

● Bəzən qızlarla müzakirələr edirik. Çox adam deyir ki, mən filan peşəni istəyirdim, ailəm icazə vermədi, ailəmin istəyi ilə filan peşəni seçdim. Bu, mənə inandırıcı gəlmir. Məncə, həqiqətən bir insan bir şeyi istəyirsə, ona kainat belə mane ola bilməz. “İstədim, ailəm qoymadı” sadəcə dildədir. Sən istəsən, ailəni də razı salarsan. Deməli, yetəri qədər istəməmisən. Hazırda 24 yaşım var və nəyi ürəkdən arzulamışamsa, reallaşıb. Bundan sonra da belə olacaq. Heç bir valideyn övladının pisliyini istəməz, sadəcə onu inandırmaq və nəyi niyə istədiyini göstərmək lazımdır. Kimsə bu istedadını içində boğursa, qığılcımını söndürürsə, bu onun öz günahıdır.

● Ailəniz indi futbola baxır?

● Bəli, ancaq mənim oyunlarıma baxırlar. Hətta oyunda sərt oynayanda, yaxud yıxılanda bibim məni danlayır ki, ehtiyatlı ol. İndi atam arxamdadır və ən böyük dayağım odur.



GEYİMƏ XƏRCLƏNƏN MİLYONLAR

May ayında pərakəndə ticarət məntəqələrində 543 milyon manatlıq geyim almışıq. Bu rəqəm sosial platformalarda müzakirələrə səbəb olub. Ekspertlər geyim sevdamızın artmasını müxtəlif səbəblərlə əlaqələndirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2024-cü ilin yanvar-may aylarında Azərbaycanda pərakəndə ticarət məntəqələrində toxuculuq məhsulları, geyim və ayaqqabılara iki milyard 821.5 milyon manat vəsait xərclənib. Dövlət Statistika Komitəsi xəbər verir ki, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə beş faiz çoxdur. Cari ilin may ayında pərakəndə ticarət məntəqələrində toxuculuq məhsulları, geyim və ayaqqabılara xərclənən vəsaitin həcmi isə 543 milyon manata bərabər olub. Bu rəqəm sosial platformalarda müzakirələrə səbəb olub. Həqiqətən də biz geyimə bu qədər pul xərcləyirik?

"AYLIQ 50-60 MANATLIQ GEYİM XƏRCİ NORMAL GÖSTƏRİCİDİR"

Marketoloq Namiq Bayramov düşünür ki, 10 milyon Azərbaycan xalqı üçün bu rəqəm elə də böyük deyil: "Ortalama adam başına 282 manat düşür. Aylara böldükdə isə 56 manat edir. Bir vətəndaşın hər ay özünə 50-60 manatlıq geyim alması normal göstəricidir. Xərcləmə on dəfə çox olsaydı, o zaman təəccübləndirici ola bilərdi. İndiki halda normaldır. Əhalinin gəlirləri də artır. Bakının meqapolis kimi inkişaf etdiyini nəzərə alsaq, insanlar artıq geyimə də, şəxsi inkişafa da vəsait xərcləyirlər. Üstəlik, xalqımız göstərişi və geyinməyi sevir. Belə davam edərsə, rəqəmlər daha da artacaq".

Marketoloq düşünür ki, onlayn alış-verişin populyarlaşması da statistik rəqəmlərə təsir edib: "Geyim alış-verişləri əsasən xaricdən olur. Yerli markalar da yaranır. Fərqli və eksklüziv məhsullar axtaran şəxslər, xüsusilə də xanımlar həmin mağazalardan geyinməyə üstünlük verirlər. İstər onlayn, istərsə də oflayn alış-verişdə bazar böyüməkdədir".

ÜÇ MƏHSUL ƏVƏZİNƏ BİRİNİ ALIR

Azərbaycan Pərakəndə Geyim İdxalçıları Assosiasiyasının İdarə Heyətinin üzvü, geyim idxalçısı Elxan Mərdanlı isə artan rəqəmləri məhsulların bahalaşması ilə əlaqələndirib: "Burada rəqəmlərə başqa aspektdən baxmaq lazımdır. Vəsaitin qarşılığında alınan məhsulun çoxluğumu nəzərdə tutulur, yoxsa bu rəqəm qiymətlərin bahalaşması nəticəsində əldə olunub? İlk növbədə bunu aydınlaşdırmalıyıq. Bir vətəndaş ay ərzində 2-3 ədəd köynək alırdısa, indi cəmi birini alır. Çünki qiymətlər qalxıb".



Namiq Bayramov

Elxan Mərdanlı



2 milyard 821.5 milyon manat
2024-cü il, yanvar-may

543 milyon manat
2024-cü il, may

Tekstil ikinci sıradadır

Türk satış mütəxəssisi Ahmet Kandemir isə düşünür ki, azərbaycanlılar geyimdən çox qidaya pul xərcləyir: "Statistika göstərir ki, Azərbaycan xalqı gəlirinin 5-10 faizini geyimə xərcləyir. Daha çox xərcləmələr isə qidaya olunur. Böyük ticarət mərkəzlərinə baxanda da görürük ki, birinci sırada qida məhsullarıdır. Ondan sonra tekstil məhsulları yer alır. Deməli, bu o qədər də böyük bir rəqəm deyil".

A.Kandemir geyimə olan marağı artıran səbəblərdən də danışdı: "Əhalinin artması, yeni nəslin daha tələbkar olması, modanın daha ön plana keçməsi, geyimin bir status halına gəlməsi səbəbindən tekstil sahəsində artım olduğunu söyləmək mümkündür. Həmçinin geyim markaları kampaniyalar, reklamlarla satışı təşviq etdikləri üçün bəzən insanlar ehtiyacları olmasa da pul xərcləyə bilirlər. Geyim sektorunda 25-30 faiz məhsullar xaricdən gətirilir. Qiymətlər arasında fərq olması da, onu populyarlaşdırır. Eyni zamanda, onlayn satışda bir proqramda yüzlərlə, minlərlə məhsulu müqayisə etmək şansınız olur".

Ahmet Kandemir

TURİSTLƏR QİYMƏTLƏRİN YÜKSƏK OLMASINDAN ŞİKAYƏT EDİRLƏR

E.Mərdanlı bildirdi ki, qiymətlərin artması insanları onlayn ticarətə meylləndirib: "Bunu da nəzərə alaq ki, insanların əksəriyyəti bu məhsulları oflayn yox, onlayn şəkildə alır. Çünki sahibkarların ödədikləri rüsumlar geyimlərin üzərinə əlavə olunur və vətəndaşın onu almağa gücü çatmır. Ona görə vətəndaşlar eyni məhsulu digər ölkələrdən daha ucuz şəkildə əldə edirlər. Bu, həmçinin xarici dövlətlərin büdcəsini doldurmaq deməkdir. Əslində, əlavə dəyər vergisi diferensial olsa, bu, daha yaxşı olardı. Gömrük rüsumlarına da yenidən baxılmalıdır. Həm qiymətlər stabilləşərdi, həm də daha çox satış olardı. Ölkəmizə gələn turistlər də bizdəki qiymətlərin yüksək olmasından şikayət edirlər".

RƏQƏMLƏRƏ XARİCDƏN GƏLƏN MƏHSULLAR DA DAXİLDİR

E.Mərdanlının fikrincə, təkcə Azərbaycandakı mağazalardan bu rəqəmləri əldə etmək mümkün deyil: "Bəzən insanlar mağazada məhsulun şəklini çəkib onlayn sifariş edirlər. Yaxud məhsulu alırlar və 14 gün qaytarılma şansı olur. Evdə həmin məhsuldan sifariş edirlər, bir həftə ərzində məhsulu çatır, bəyəndikdə mağazadan aldığını aparıb qaytarır. Statistikadakı rəqəmlərə xaricdən gələn məhsullar da daxildir".

Foto: Sabir Məmmədov/Global Media Group

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
Global Media Group
Baş redaktor
İlham Quliyev
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov
Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1500
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.



SOCAR COP29-da fəal iştirak edəcək

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) fəal iştirak edərək iqlim dəyişikliyinin təsirlərinin yumşaldılmasına kömək edəcək tədbirlər və müzakirələr təşkil etməyi planlaşdırır.

"Report" xəbər verir ki, bunu SOCAR-ın vitse-prezidenti Əfqan İsayev "Euronews"a açıqlamasında deyib.

Ə.İsayev digər milli və beynəlxalq neft şirkətləri ilə birgə səylərin vacibliyini vurğulayıb: "Strateji tərəfdaşlıqlar və perspektivli layihələr vasitəsilə SOCAR gələcək nəsillər üçün dayanıqlı gələcəyi təmin etməyi hədəfləyir".

"SOCAR strateji mövqe tutur ki, regionun gələcək enerji xəritəsinin formalaşmasında əsas rol oynasın", - o vurğulayıb.

Vitse-prezident, həmçinin "Euronews"a şirkətin karbohidrogen və aşağı karbonlu biznes portfelini tarazlaşdırmaq məqsədi ilə ənənəvi neft-qaz müəssisəsindən 2035-ci ilə qədər enerji sahəsində şaxələndirilmiş lider şirkətə çevirmək planları və addımları barədə danışıb.

Ə.İsayev SOCAR-ın karbonsuzlaşdırmaya sadiqliyini vurğulayaraq, emissiya səviyyəsini qlobal sənaye liderlərinin səviyyəsinə uyğunlaşdırmaq niyyətində olduğunu deyib.

O bildirib ki, dövlət şirkəti strateji qlobal oyunçularla əməkdaşlıq edir, o cümlədən iki günəş və bir külək elektrik stansiyası da daxil olmaqla 1 GVT gücündə bərpa olunan enerji mənbələrinin, həmçinin ekoloji cəhətdən təmiz hidrogen istehsalına yönəlmiş 2 GVT gücündə dəniz külək enerjisi layihəsinin hazırlanmasına başlayıb.

CƏBRAYILDA LOGİSTİK MƏRKƏZ YARADILACAQ?

Sənaye parkındakı logistik mərkəz Laçın, Şuşa, Füzuli, Qubadlı, Zəngilan, Xocavənd və Cəbrayıl rayonlarında həyata keçiriləcək layihələri tikinti materialları ilə təmin edə bilər.

Cəbrayılda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında dəyəri 20 milyon manat olan logistik mərkəzin yaradılması təklif edilir.

"Report"un əldə etdiyi məlumata görə, layihənin icrasında əsas məqsəd Cəbrayıl rayonu ərazisində qurulması nəzərdə tutulan logistik mərkəz vasitəsilə işğaldan azad edilmiş ərazilərin bərpası prosesində təchizatçı funksiyalarının həyata keçirilməsidir. Logistik mərkəz Laçın, Şuşa, Füzuli, Qubadlı, Zəngilan, Xocavənd və Cəbrayıl rayonlarında həyata keçiriləcək layihələri tikinti materialları ilə təmin edə bilər.



VAHİD MƏRKƏZDƏN TƏCHİZAT

Tikintidə istifadə ediləcək mal-materialın vahid mərkəzdən təchizatı, bərpa prosesində fəaliyyət göstərəcək işçi heyətinin, o cümlədən dövlət qurumlarının regional bölmələrinin işçilərinin zəruri ehtiyaclarının ödənilməsi məqsədilə ticarət və xidmətlərin təşkili, regiona idxal və ixrac edilən məhsullar üzrə anbar və logistika xidmətlərinin təşkili mərkəzin fasiləsiz fəaliyyətinin qurulmasına imkan yaradacaq.

Zəngəzur dəhlizinin nəqliyyat qovşağının üzərində yerləşməsi beynəlxalq nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsini təmin edəcək.

ƏDV VƏ GÖMRÜK RÜSUMLARINDAN AZAD OLUNURLAR

Qeyd edək ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində fəaliyyətə görə, müəssisələr 10 il müddətinə mənfəət, əmlak, torpaq, idxal olunan avadanlıqlara görə ƏDV və gömrük rüsumlarından azad olunur. İstehsal fəaliyyəti ilə məşğul olan sahibkarların ödədikləri kommunal xidmətlərin tariflərinə uyğun olaraq vəsaitin 20 %-i məbləğində dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımının ödənilməsi nəzərdə tutulur.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı 2021-ci il oktyabrın 4-də Cəbrayıl rayonunda yaradılıb. Sənaye parkı 200 hektar ərazini əhatə edir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının hazırda 10 rezidenti və 2 qeyri-rezidenti var. İnvestorlar tərəfindən ümumi olaraq parka 83,4 milyon manatdan artıq investisiyanın yatırılması, 700-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Bugünədək sənaye parkına 14 milyon manatdan çox investisiya yatırılıb, 20-dən artıq iş yeri yaradılıb.

"Bakcell" ölkədə ilk dəfə VoWiFi texnologiyasını təqdim edib

"Bakcell" şirkəti Azərbaycanda ilk dəfə olaraq Wi-Fi üzərindən zəng xidmətini - VoWiFi (Voice over Wi-Fi) texnologiyasını istifadəyə verib. Yeni xidmət ölkə xaricində olan abunəçilərə smartfonda Wi-Fi şəbəkəsi aktiv olduğu halda dünyanın istənilən yerinə Azərbaycandakı tarif ilə zəng etmək imkanı verəcək.

Bunun üçün ölkə xaricində olarkən rouminq və VoLTE / VoWiFi xidmətlərinin aktiv olması kifayətdir.

VOWİFİ XİDMƏTİNİN ÜSTÜNLÜKLƏRİ NƏLƏRDİR?

● VoWiFi xidməti ilə abunəçi xaricdə olarkən daxil olan rouminq zənglərini tamamilə pulsuz qəbul edə biləcək.



● Şəbəkənin olmadığı yerlərdə belə, WiFi üzərindən mobil nömrə ilə yüksək keyfiyyətli zəng etmək mümkün olacaq.

● Xaricdə olarkən VoWiFi xidməti ilə edilən zənglərə Azərbaycandakı tarif tətbiq edilir. Bu isə beynəlxalq zənglərdə əlavə xərclərə qənaət etməyə kömək edəcək.

Smartfonun VoWiFi texnologiyasını dəstəkləməsini *309# kodunu yığmaqla yoxlamaq olar. Ətraflı məlumat bakcell.com/vowifi səhifəsində yerləşdirilib.

Qeyd edək ki, VoWiFi texnologiyası "Bakcell"in yeni brend strategiyasına daxil olan innovativ məhsullardan biridir. Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərin ixtiyarına verməyi planlaşdırır.

"Nar" komandası "Breyn Rinq" yarışının qalibi oldu

"Nar" komandası 5 ay davam edən gərgin mübarizə nəticəsində "Breyn Rinq" yarışmasının 23-cü mövsümündə qalib gəlib. Ümumilikdə "Breyn Rinq" intellektual yarışmasının bu mövsümündə 20 komanda iştirak edib. "Nar" finalda "Gəncə" komandasını 2:0 hesabı ilə məğlub edib. Qeyd edək ki, "Nar" komandası 4 qat Azərbaycan çempionu və mobil operatorun təsis etdiyi "Nar" kubokunun 6 qat qalibidir.

"Nar" Korporativ Sosial Məsuliyyət strategiyası çərçivəsində intellektual oyunları dəstəkləyir. Mobil operator 10 ildən artıqdır ki, "Breyn Rinq" intellektual yarışmasının əsas tərəfdaşıdır. Bu tərəfdaşlığın məqsədi ölkədə təhsil təşəbbüslərini təşviq etməkdir. "Nar"ın gerçəkləşdirdiyi layihələr haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir və son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə liderdir. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



Kaspi ÜÇ ƏSRİN QƏZETİ

GÖZƏLLİYİN TƏBİƏTDƏKİ ƏKSİ



Bakıətrafı ərazilər gül yetişdirmək üçün əlverişli deyil. Bu, qiymətlərə də təsir edir. Mütəxəssis deyir ki, radiasiya çox olan ərazilərdə yetişən güllər daha keyfiyyətli olurlar.

AYSEL ASLANQIZI

İnsanlar Allahın gülü tikanlı yaratdığından şikayət etmək əvəzinə, tikanlar arasında gül yaratdığına görə şükür etməlidirlər. Möhtəşəm rəng çalarları, hiss, xəyal və sevda dolu ətri, körpə tumurcuqları, qısaca göz qamaşdıran gözəlliyi ilə varlığımızın dəyərli bir parçasıdır güllər.



GÜLLƏR KLASSİKLƏRİN TƏXƏYYÜLÜ İLƏ...

Əgər gül insan hisslərinin simvolu olmasaydı, gülü sevən tikanına dözməzdi. Fransız şair Malherbe dünyada iki gözəl varlığın qadın və gül olduğunu da deməzdi.

Şairlər illərlə bu təxəyyül incilərini sadalamağa davam edərkən, bir gün Viktor Hüqo öz sözləri ilə qızılgülü qadınla bağlayır və deyir: "Tanrı ilk gün qadını və onun könlü xoş olsun deyə ardınca gülü yaradıb".

ƏTİRLİ GÜLLƏR DAHA HƏSSAS OLUR

Budəfəki söhbətimiz məhz təbiət möcüzəsi güllər haqqında olacaq. Bunun üçün Qalada yerləşən, güllərin vətəni kimi bilinən Niderlanddan gətirilmiş son texnologiyanın istifadə olunduğu gül istixanasına üz tutmuşuq.

Üç hektar ərazidə 18 növ gülün yetişdirildiyi istixanada güllərdən sadəcə bir növü ətirlidir. Həmin qızılgülün kəskin ətri iybilmə reseptorlarımızı qıcılandıraraq özünə valeh edir. Təəssüf ki, ətirli güllər daha həssas olduğuna və zərərverici həşəratları özlərinə çəkdiklərinə görə istixanalarda onların yetişdirilməsinə çox da maraq göstərilmir.

İSTİLİYİ SEVMİR, RADİASİYA DOSTUDUR...

Güllər təbiəti etibarilə yay fəslini sevmirlər və radiasiyanın çox olduğu ərazilərdə daha yaxşı yetişirlər.

İstixana, həmçinin burada yetişdirilən güllər barədə məlumat almaq üçün aqronom, sistem administratoru Aqil Yusifovla həmsöhbət oluruq.

Həmsöhbətimiz bildirir ki, istixana altı ildir ki, fəaliyyət göstərir: "18 növ qızılgüldən doqquzu kol qızılgülləri, yerdə qalan doqquzu isə təkbaş qızılgüllərdir. Hazırda mövsümlə əlaqədar proqrama keçmişik. Yay fəslində güllər zərərvericilərə və floral xəstəliklərə qarşı daha həssas olduqları üçün hər gün gübrələmə, sulama və zərərvericilərə qarşı dərmanlama həyata keçiririk. İstixanada Niderlanddan gətirilən priva sistemi tətbiq olunur".

HƏR GÜN 18-20 MİNƏ YAXIN GÜL İSTEHSAL EDİLİR...

Hömsöhbətimiz əlavə edir ki, hər gün istixanada orta hesabla 18-20 minə yaxın gül istehsal edilir: "Güllər yığıldıqdan sonra 24 saatlıq -2, -4 dərəcəli soyuducularda depolanır və daha sonra çeşidlənməyə gedir. Təkbaş qızılgüllər 20 ədəd, kol qızılgüllər isə 15 ədəd olmaqla buketlənir. İstehsala başladığımız gündən indiyədək yerli bazarla yanaşı, Rusiya və Gürcüstan bazarlarına da ixrac etmişik".

YALNIZ AZƏRBAYCANDA YETİŞDİRİLƏN ALOV QIZILGÜLÜ

Onu da öyrənirik ki, Alov qızılgülü dünyada ancaq Azərbaycanda və yalnız bu istixanada yetişdirilir. Məhsuldarlığı yüksəkdir, kvadrata düşən sayına görə digər növlərə nisbətən daha çoxdur. Azərbaycanda gülçülük əsasən ötən əsrin 70-ci illərindən inkişaf edib. 90-cı illərdə sözügedən sahədə irəriləyiş bir qədər səngiyib. Son illərdə isə yenidən intensivləşib. Buradakı güllər Fransa və Niderlanddan alınan çiliklərdən istehsal edilir.



ƏLVERİŞSİZ ŞƏRAİT QİYMƏTLƏRƏ TƏSİR EDİR

A.Yusifov bildirir ki, Bakı və Bakıətrafı ərazilər gül yetişdirmək üçün əlverişli deyil: "Bu hal qiymətlərə də təsir edir. Radiasiya çox olan ərazilərdə yetişən gül daha keyfiyyətli olur. Məsələn, Qəbələ rayonundakı istixanalarda gül yetişdirmək daha asandır, nəinki Bakıda".

Güllərin yetişdirilməsi üçün ən əlverişli şəraitə malik olan ölkələrin Keniya və Ekvador olduğunu da öyrənirik. Elə bu səbəbdəndir ki, dünyada gül bazarlarında həmin ölkələrdə yetişən güllər qiymətinə, həmçinin görünüşünə görə liderlik edir.

Havanın isti olması səbəbindən gül yığımı səhər saat 7.00 radələrindən başlayır və günorta saat 14:00 a dək davam edir.

Bu həssas kol bitkisinin tarixi bəşəriyyət tarixindən milyonlarla il əvvəldən başlayır. Koloradoda Florissant fosilləri araşdırılarkən qızılgülün yaşının 40 milyon il olduğu üzə çıxıb. Molekulyar bioloqlar isə qızılgülün DNT-sini tədqiq edərkən onun yaranışının 200 milyon il əvvələ aid olduğunu iddia edirlər.

DUYĞULARIN İFADƏSİNƏ ÇEVRİLƏN QIZILGÜLLƏR

Duyğuları ifadə etmək üçün ən çox istifadə edilən çiçəklərdən biridir qızılgül. Onun hər bir rəngi xoş ətri ilə fərqli duyğuları özündə əks etdirir. Sevgi simvolu olan qızılgül bəzən ehtiras, bəzən həsrət, bəzən də ayrılığı ifadə edir. Gül dili olan bir çiçəkdir. Rəngləri və bir araya gəldiyi buketdəki sayı ilə duyğularımızın rəmzinə çevrilir, hərdən sevgidən, bəzənsə ayrılıqdan xəbər verir.

QADINLAR VƏ GÜLLƏR

Qadınların bu gözəllik qarşısında çox zaman aciz qalması isə mübaliğə deyil, reallıqdır. İstənilən qadına qarşı hisslərinizi ifadə edərkən gözəl sözlərin qəlbdəki yerini rahat tapa bilməsinə ən böyük dəstəyi verən də məhz bəhs etdiyimiz qızılgüllərdir.

Güllər, onların yaydığı enerji, özünəməxsus gözəl ətirləri, eyni zamanda qadınlarla güllər arasındakı bağlar danılmazdır.

Fotolar: Tapdıq Abdullayev/Global Media Group

MÜKƏMMƏL ƏSƏRLƏR MUZEYİ

Roma papaları tərəfindən yaradılan Vatikan Muzeyləri kompleksi dünyanın ən çox ziyarət edilən beş muzeyindən biridir. Hər il altı milyondan çox insan bu muzeyləri ziyarət edir. Burada ziyarətçiləri 11 muzey, 54 qalereya və on minlərlə əsər gözləyir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Vatikan Muzeylərinə ekskursiya turistlərə Vatikanın mübahisəli tarixinin əsas hadisələri haqqında məlumat verir və onun möhtəşəm sənətini üzə çıxarmağa kömək edir. Roma papaları tərəfindən yaradılan muzeylər kompleksi dünyanın ən çox ziyarət edilən beş muzeyindən biridir. Hər il altı milyondan çox insan bu muzeyləri ziyarət edir. Parisdəki Luvr muzeyi qədər böyük olmasa da, 11 muzeyi, 54 qalereyası və on minlərlə əsəri ilə dünyanın ən möhtəşəm muzeyi sayılır. Kolleksiyaları intibah dövrü əsərləri də daxil olmaqla, klassik ustaların əsərlərindən ibarətdir. Muzeylər XVI əsrin əvvəllərində II Pope Julius tərəfindən qurulub. Muzeylərə marşrut Mikelancelonun tavan rəsmləri ilə Sikstin kapellası və Rafael tərəfindən bəzədilmiş çalarları ehtiva edir.

ƏZM VƏ SƏBİR TƏLƏB OLUNAN SƏFƏR

Vatikan muzeylərinə daxil olmaq üçün hələ Romaya səfərimdən xeyli əvvəl muzeyin mətbuat şöbəsi ilə yazışmış və vaxt darlığını nəzərə alaraq sürətli keçid istəmişdim. "Biz Sizə sürətli keçid veririk və 5 avro da endirim edirik. 20 avroluq bilet alıb Vatikan muzeylərini ziyarət edə bilərsiniz. Bu səfər həyatınızın qalan hissəsi üçün yaddaqalan bir təcrübə olacaq, lakin bunun üçün əzm və səbir tələb olunacaq" cavabını aldım.

Səyahət üçün saatlarla davam edən növbələrdən qaçsam da, məni uzunluğu yeddi km olan muzey sərgisi gözləyirdi. Müqəddəs taxt-tac dövlətinin çoxşaxəli tarixi, Vatikanın müasir həyatı haqqında maraqlı faktları öyrənməyi, möhtəşəm sənət əsərlərini seyr etməyi kim arzulamır? "Hər bir eksponatın yanında bir dəqiqə dayansanız, bütün kolleksiyaya baxmaq 12 il çəkəcək!" fikirlərini oxuduğumdan 5-6 saat ərzində muzeyin görməli yerlərini ziyarət etməli idim.

TURİSTLƏR ÜÇÜN UNİKAL TƏCRÜBƏ

Vatikan Muzeyini ziyarət etmək Romaya gələn turistlər üçün unikal təcrübədir. Muzeylərin ən gözə çarpan inciləri sırasına Bramante pilləkənləri, Pinakoteka, Rafaelin "Dönüşmə" tablosu, Şam ağacının həyəti, Rotunda zalı və Porfir qabı, Qobelen qalereyası, Mikelancelonun "Son qiyamət" freskası, Şapelin tavanı və s. daxildir. Məsələn, müasir Bramante pilləkəni muzeylərdə fotoşəkil çəkilən ən gözəl obyektlərdən birinə çevrilib. Görünüşü DNT molekulunun alleqoriyasına malik qoşa spiral şəklindədir.

Rotunda Zalı muzeylərə gələn qonaqlarda xüsusi təəssürat yaradır. Çünki otağın qübbəsi Panteondan nümunə götürülüb. İkinci əsrə aid döşəmədəki incə kiçik mozaika və soyudulmuş lavadan yaradılmış 12 metrlik və inanılmaz dərəcədə ağır qab insanı heyrətə salır.

Qobelen qalereyası tavanda yerləşən boyalı gips barelyefləri ilə turistləri heyran edir. Divarlardakı qobelenlərin tamamlanması illər çəkib. Finlandiya və Belçikanın ən yaxşı toxucuları onları yun, ipək, qızıl və gümüş saplardan toxuyublar.

BU SALONDA DANIŞMAQ QADAĞANDIR

Məşhur Sikstin Kapellası italyan incəsənətinin ən görkəmli abidələrindən biridir. Kapellanın yerləşdiyi bina Papa IV Sikstin vaxtında müqəddəsləşdirilib. 1481–83-cü illərdə kapellanın divarlarına Musanın və İsanın həyatından səhnələr təsvir olunan freskalar çəkilib. Bottiçelli, Girlandayo, Signorelli, Perucino və Cosimo Russellin və s. intibah rəssamlarının heyrətamiz freskaları və rəsmləri göz oxşayır. 1508-1512-ci illərdə Mikelancelo kapellanın tavanının, 1536-1541-ci illərdə isə mehrab divarının ("Məhşər günü") rəsmlərini yaradıb.

Mikelancelonun dörd ilə yaratdığı "Son qiyamət" adlı irimiqyaslı freskasından göz çəkmək mümkün deyil. Bütün qurbangahın divarı Məsih, Məryəm, uçan mələklər, Apokalipsis mələkləri, salehlərin cənnətə daxil olması və günahkarların cəhənnəmə düşməsini əks etdirən kompozisiya ilə əhatə olunub.

Sikstin kapellasının daxilində söhbətlər qəti qadağandır, ona görə də salona girməzdən əvvəl bələdçilər turistlərə görməli olduqları hər şeyi təsvir edirlər. Bu bina papa seçimlərinin də keçirildiyi yerdir.

BÜTÜN PAPALARIN İSTİFADƏ ETDİKLƏRİ MAŞINLAR

Pinakothek Vatikan papanın şəxsi iqamətgahında olan və 118 rəsm əsərindən ibarət qalereya muzeyidir. Hazırda Luka Beltrami tərəfindən dizayn edilmiş yeni binada yerləşir. Muzey 12-ci əsrdən 19-cu əsrə qədər toplanmış, içində Rafael, Leonardo da Vinçi və Cottoya məxsus əsərlər də olan 460 eksponatdan ibarətdir.

Qədim Roma və yunan dövrlərinə aid heykəlləri nümayiş etdirən, iki papanın adını birləşdirən Pio-Klementino Muzeyi, doqquz otaqdan ibarət və bu otaqlarda papiruslar, mumiyalar və sarkofaqlar yerləşən Misir Muzeyini, 16-cı əsrdən günümüzədək olan papaların portretlərini, istifadə etdikləri maşınları nümayiş etdirən Vatikan Tarixi Muzeyini, Latsio bölgəsindəki qazıntılar nəticəsində tapılmış gümüş, bürünc və qızıldan ibarət kolleksiyanın mövcud olduğu Etruks Muzeyini, qədim Roma və Yunan dövrünə aid mindən çox əsərə ev sahibliyi edən Karamonti Muzeyi, dünyanın ən böyük coğrafi muzeyi olan Coğrafi Xəritələr Qalereyasını ziyarət edən turistlərin sayı-hesabı yoxdur. Vatikan muzeyindəki əsərlərin digər bir xüsusiyyəti də əsərlərin əksəriyyətinin qüsursuz olmasıdır. Bu gün dünyanın bir çox muzeylərində nümayiş olunan əsərlərdən fərqli olaraq, Vatikanda başsız heykəl görmək mümkün deyil.


BÜTÜN MUZEYLƏRİ CANLI GÖRMƏK İSTƏSƏNİZ...

Hər ayın son bazar günü və 27 sentyabr Ümumdünya Turizm Günündə Vatikan muzeylərinə pulsuz daxil olmaq mümkündür. Muzeylərin girişində audiobələdçi satılır. Burada müxtəlif eksponatlar haqqında 200-ə yaxın səs yazısı var. Vatikan muzeylərində suvenir və kitab mağazaları, bir neçə kafe, papa dövlətinin açıqcalarını və əşyalarını satan Vatikan Poçt şöbəsi fəaliyyət göstərir.

Sərgi salonlarına virtual ekskursiya rəsmi saytda pulsuzdur.









SADƏ İNSANLAR ARASINDA ÜZGÜÇÜLÜYƏ MARAQ XEYLİ ARTIB

HOVUZ SEÇƏRKƏN NƏLƏRƏ DİQQƏT ETMƏLİ?



Hazırda ölkə ərazisində 60-dan çox üzgüçülük hovuzu fəaliyyət göstərir. Mütəxəssislər üzgüçülüyün sağlamlığımız üçün çox faydalı olduğunu söyləsələr də, qiymətlər əhalinin bütün təbəqəsi üçün əlçatan deyil.

SEVİNC ABBASOVA

Son illər Azərbaycanda populyarlaşan idman növlərindən biri də üzgüçülükdür. Artıq sadə insanlar arasında da üzgüçülüyə maraq xeyli artıb. Həkimlər də üzgüçülüklə məşğul olmanın sağlamlıq üçün çox faydalı olduğunu deyirlər. Maraqlıdır, görəsən, hazırda bu sahədə qiymətlər necədir, hansı problemlər var?

QİYMƏTLƏR YAŞDAN VƏ MƏŞQÇİNİN İŞTİRAKINDAN ASILI OLARAQ DƏYİŞİR

Qeyd edək ki, bu gün paytaxtla yanaşı, respublikanın əksər bölgələrində üzgüçülük hovuzları mövcuddur. Rəsmi məlumata görə, hazırda ölkə ərazisində 60-dan çox üzgüçülük hovuzu fəaliyyət göstərir. Bunlardan beşi olimpiya standartlarına tam cavab verir. Üzgüçülük hovuzlarında qiymətlər müştərilərin yaşından və məşqçinin iştirakından asılı olaraq dəyişir. Apardığımız araşdırmaya əsasən deyə bilərik ki, qiymətlər əhalinin bütün təbəqəsi üçün əlçatan deyil. Belə ki, bir girişin qiyməti məkandan asılı olaraq 10-25 manat arasındadır. Müştəriyə istəyinə uyğun üç formada - limitsiz, səkkiz və ya 12 giriş olmaqla aylıq hovuz paketi təklif edilir. Paytaxtın mərkəzi ərazilərinə yaxın yerləşən məkanlarda böyüklər üçün limitsiz aylıq paketlərin qiyməti 150-250 manat civarındadır. Mərkəzi hissədən kənar ərazilərdə qiymətlər 105 manatdan başlayır. Dərslərin müddəti isə məşqçi ilə 45 dəqiqə, sərbəst şəkildə bir saat nəzərdə tutulub. 6-12 yaş arası uşaqlar üçün məşqçi ilə aylıq qiymətlər 85 manatdan başlayır.



Könül Həsənova

DÜZGÜN QAMƏT, MÖHKƏM ƏZƏLƏ

Həkim-fizioterapevt Könül Həsənovanın sözlərinə görə, üzgüçülük insan üçün fiziki yükləmənin ən yaxşı növüdür. Həkim bildirib ki, əks göstəriciləri olmadığına görə üzgüçülüklə hər kəs məşğul ola bilər: "Üzərkən yürüş və qaçış zamanı olduğu kimi dayaq-hərəkət sisteminə yük düşür, lakin suda qravitasiya az təsir etdiyinə görə onun optimal paylaşması baş verir. Suda onurğa sütununa vertikal yükləmə düşmür. Suda hərəkət edərək müqaviməti qət etmək lazım olur. Bu prosesdə gündəlik həyatda işləməyən əzələlər fəaliyyət göstərir. Üzmə zamanı əlavə olaraq avtoxron əzələlər işləməyə başlayır. Məhz bu əzələlər bel sütununu şaquli vəziyyətdə saxlayır. Beldə və qamətdə problem olduğuna görə bu əzələlər çox vaxt pis inkişaf edir".

K.Həsənova deyib ki, hovuzda məşqlər zamanı hərəkət tənzimlənməsi yaxşılaşır, skelet möhkəmlənir, qamət düzəlir. Qan dövranı, ağciyərlərin fəaliyyəti yaxşılaşır, əzələ tonusu möhkəmlənir.

Həkim onu da vurğulayıb ki, su hovuzunda məşqə başlayan uşaqlar fiziki cəhətdən tez inkişaf edir, onların immun sistemi möhkəm olur. Eyni zamanda, onların maddələr mübadiləsi yaxşı işləyir, dayaq-hərəkət aparatı ilə problemləri olmur: "Müalicəvi üzgüçülük bütün uşaqlar üçün xeyirlidir. Həkimin icazəsi ilə sağlamlığında problem olan uşaqlar üzgüçülüklə məşğul ola bilərlər. Bu idman növü nevroloji problemlərin aradan qaldırılmasına, dayaq-hərəkət sistemində nasazlıq olan uşaqların sağalmasına kömək edir".

SU İDMAN NÖVLƏRİNƏ MARAQ HƏLƏ DƏ QANEEDİCİ DEYİL

Azərbaycan Üzgüçülük Federasiyasının vitse-prezidenti Tamerlan Abdullazadə isə deyib ki, bir zamanlar bu sahədə ən böyük problem hovuzların sayının azlığı idi: "Amma bu gün demək olar ki, bütün bölgələrdə, böyük şəhərlərdə üzgüçülük hovuzları və seksiyaları fəaliyyət göstərir. Hazırda 49 Olimpiya İdman kompleksi fəaliyyətdədir. Onların əksəriyyətində üzgüçülüklə peşəkar məşğul olmaq üçün imkanlar yaradılır. Bakı Su İdman Sarayı və Gəncə İdman Sarayı bunun bariz nümunələrindəndir. Aprel ayında dövlət başçısının açılışını etdiyi Gəncə İdman Sarayında "World Aquatics"in bütün beynəlxalq tələblərinə cavab verən su hovuzu istifadəyə verildi. Federasiya tərəfindən məşqçilər üçün mütəmadi seminarlar təşkil olunub və bundan sonra da təşkil olunması nəzərdə tutulub ki, bu da onların kvalifikasiyalarının yüksəlməsinə xidmət edir".

Federasiya rəsmisinin sözlərinə görə, bu gün ən vacib məsələ əhalinin üzgüçülüyə olan marağının kütləvi şəkildə təmin olunmasıdır: "Təbii ki, ötən beş il ilə müqayisə etsək hazırda bu istiqamətdə vəziyyət xeyli dəyişib. Artıq regionlarda vətəndaşlarımız su hovuzlarına gəlir və üzgüçülüyün sirlərinə yiyələnmək üçün peşəkar məşqçilərdən dərslər alır, sağlamlıqlarını bu idman növü ilə gücləndirirlər. Lakin hazırda ölkəmizdə üzgüçülük üçün yaradılan münbit şəraitin müqabilində su idman növlərinə maraq bizi qane edəcək qədər deyil. Məhz bu vəziyyəti yaxşıya doğru dəyişmək üçün federasiya olaraq Gənclər və İdman Nazirliyi ilə birgə bir sıra kütləvi xarakter daşıyan layihələr icra edirik.

NƏ AC, NƏ DƏ TOX VƏZİYYƏTDƏ...

Mütəxəssis bildirib ki, qərb ölkələrinin bir çoxunun təhsil sistemində üzgüçülük məcburi xarakter daşıyır və ayrıca fənn kimi tədris olunur: "İdmanın bu növü ilə məşğul olmaq sağlamlıqla yanaşı, azyaşlılarda möhkəm iradənin formalaşmasına, o cümlədən məsuliyyət hissinin inkişafına da kömək edir. Bundan əlavə, üzgüçülük əzələ sistemini inkişaf etdirir, piylənmənin, şəkər xəstəliyinin və skoliozun qarşısını alır. Erkən yaşlarda həmin idman növü ilə məşğul olmaq gələcəkdə yarana biləcək su fobiyasını aradan qaldırır. Alimlərin fikrincə, uşaq yeriməzdən əvvəl mütləq üzməlidir. Mütəxəssislər artıq iki aylığından etibarən körpəni suya alışdırmağı məsləhət görürlər. Nə ac, nə də tox vəziyyətdə suya girmək tövsiyə olunmur. Yeməkdən 2-3 saat sonra üzmək daha məsləhətdir. Hovuzda suyun temperaturu 27 dərəcə civarında olmalıdır. Həftədə 2-3 dəfə olmaqla 5-6 yaşlarındakı uşaqlara yarım saat, altı yaşdan yuxarı olanlara isə 45 dəqiqə və ya bir saat məşq etmək tövsiyə edilir".

T.Abdullazadənin sözlərinə görə, üzgüçülük məşqlərinə yazılmaq istəyənlər seçdikləri məkanla bağlı bir sıra məqamlara diqqət yetirməlidirlər. Ən əsas amil hovuzun, daxilindəki suyun və onun ətraf mühitinin sanitar-gigiyenik tələblərə cavab verməsidir. Əlavə olaraq məkanda və soyunub-geyinmə otaqlarında havanın temperaturu lazımi dərəcədə olmalıdır.



Tamerlan Abdullazadə

UŞAQLARIN SEVİMLİ ƏLƏKBƏR ƏMİSİ



"Ələkbər Hüseynov səhhəti ilə əlaqədar çalışdığı iki teatrdan birini seçməli idi. Həkimlər ona çox işləməyi məsləhət görmürdülər. Çünki artıq ağrıları vardı və əməliyyat olunmuşdu. O, sonunda Kukla Teatrını seçdi".



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Ələkbər Hüseynov Dövlət Kukla Teatrının tamaşaçıları üçün uzun müddət maraqlı sima olub. Bilet almağa yaxınlaşan böyüklü-kiçikli tamaşaçılar "bu gün Ələkbər əmi oynayırmı?"- deyə maraqlanıblar. Bunu teatrın kassasında çalışan Dilarə Məlikova da təsdiqləyir: "Sanki teatra ona görə gəlirdilər. Ələkbər Hüseynovun tamaşaları zamanı salon dolu olurdu..."

Ələkbər Hüseynov bu sevgini elə-belə qazanmamışdı. 7 iyulda - doğum günü ərəfəsində mərhum aktyoru yad edərkən sənət dostlarının da həmkarlarına olan böyük sevgisinin şahidi olduq.

HƏR KƏSLƏ DİL TAPA BİLƏN İNSAN

Xalq artisti Səidə Quliyeva "Mən Ələkbərlə yaradıcılıq ünsiyyətində olanda o, artıq hörmətli və daha çox uşaqların sevimlisi olan aktyor idi", - deyə xatırlayır: "Əli Əmirlinin "Bala başa bəla" tamaşasında onunla işlədik. Ona qədər isə Ələkbəri bir aktyor kimi tanıyırdım. Hətta Şəki Teatrında işləyərkən də onu izləyirdim. Maraqlı və orijinal bir aktyor idi. Onun bənzəri yox idi, rəngarəng rollar oynayırdı. Bu da məni cəlb etmişdi. "Bala başa bəla" tamaşasına dəvət alanda və biləndə ki, oğlumu Ələkbər oynayacaq, bir az tərəddüd etdim. Mən ondan cəmi 4-5 yaş böyük idim. "Şərif Qurbanəliyevlə Ramiz Həsənoğlu necə olub ki ana rolunu mənə, oğlumu da ona veriblər?"- deyə təəccübləndim. Amma əsəri oxuyandan və məşq prosesindən sonra gördüm ki, yaş fərqi görünməyəcək. Tamaşaçı da "O qədər cavan analar var ki..." - deyə o fərqə varmadı. Biz bu nöqteyi-nəzərdən yanaşdıq və mənə elə gəlir ki, uduzmadıq. "Bala başa bəla" tamaşasının çəkilişləri zamanı dörd ay məşq elədik. İndi demək olar ki, belə məşqlər olmur. Bir ay ərzində hər gün çəkildik".

S.Quliyeva həmkarının xarakterindən danışaraq, onun mülayim təbiətli insan, hər kəslə dil tapa bilən şəxs olduğunu deyir: "Çəkiliş meydançasından çıxanda artıq gec olurdu. Biz evə bir qayıdırdıq. Yol boyu onun xarakterini daha yaxından öyrənirdim. Ələkbər hamı ilə öz dilində danışmağı bacarırdı. Amma özünə qarşı həddindən artıq sərt idi. Uşaqlar onu çox sevirdilər. Dünyasını dəyişəndə uşaqlar ağlayırdılar, bu xəbərə inanmaq istəmirdilər. Ələkbər "Təbəssüm" ordeni ilə təltif olunmuşdu. Dünyanın bir çox məşhur insanları bu ordenə layiq görülüb. Ələkbərin belə bir yüksək mükafata layiq görülməsi ölkəmiz üçün də böyük hadisə idi. Ancaq ordeni alandan sonra cəmi 20-25 gün yaşadı".

"SANKİ İKİ DAŞIN ARASINDA QALMIŞDI"

"1987-ci ildə Kukla Teatrına baş rejissor təyin olunduqdan sonra Ələkbər Hüseynovu teatra dəvət etdim" - deyə rejissor Namiq Ağayev xatırlayır: "Onda Ələkbər Şəki Teatrında işləyirdi. Eyni zamanda, Hüseynağa Atakişiyevin Gənclər Teatrında çalışırdı. Sanki iki daşın arasında qalmışdı. Gənclər Teatrı da ağır sənət yeri idi, Kukla Teatrı da gərgin zəhmət tələb edirdi. Ələkbər səhhəti ilə əlaqədar iki teatrdan birini seçməli idi. Həkimlər ona bu qədər işləməyi məsləhət görmürdülər. Çünki artıq ağrıları vardı və əməliyyat olunmuşdu. O, sonunda Kukla Teatrını seçdi. Biz onunla "Pəri cadu" tamaşasını hazırladıq, baş rolda oynadı. Ələkbərlə kukla sənətinə adaptasiya dövrü keçirdik. Çünki dram teatrından gələn rejissor yarı canlı, yarı kukla istifadə etməklə bağlı bir adaptasiya dövrü keçir. Biz bu mərhələni birlikdə adladıq. Teatrda Oqtay Dadaşov, Şahmar Hüseynov, Ruslan Həsənov, Mansur Mansurov kimi ustadlar vardı, onlar da təcrübələrini Ələkbər əmi ilə paylaşdılar və biz böyük nailiyyətlər əldə etdik. Onu sanki transfer edilmiş futbolçu kimi komandaya yerləşdirmişdim. Sonradan başqa əsərlərdə də rol aldı. O, dünya mədəniyyətini öyrənməyə çalışan insan idi. Gözəl musiqi qabiliyyəti də vardı. Nağara, saz çalmağı, nəlbəkilər üzərində ifa etməyi öyrəndi. Biz çox festivallara dəvət alırdıq.

Sonra o, mənsiz də "Bülbül" və "Keçəlin toyu" tamaşaları ilə Avropanı dolaşdı. Onun tamaşaları bir sıra beynəlxalq festivallarda birincilik qazandı. Sonra da Polşanın "Təbəssüm" ordeninə layiq görüldü. Bu medalı ona şəxsən birinci xanım Mehriban xanım Əliyeva təqdim etdi. Bu, böyük şərəf idi".



Namiq Ağayev — Səidə Quliyeva — Rəhman Rəhmanov

"50 YAŞINA QƏDƏR SANKİ 100 İLLİK HƏYAT YAŞADI"

N.Ağayev deyir ki, Ə.Hüseynov hiperaktiv insan idi: "Uşaqların sevgisini çox tez qazandı və onların sevimlisinə çevrildi. O, televiziyada uşaq verilişinin aparıcısı idi. Televiziya tamaşaçılarının da sevimlisi olmuşdu. Ələkbər 50 yaşına qədər sanki 100 illik həyat yaşadı. Mən Türkiyəyə işləməyə gedəndən sonra da onunla tez-tez danışırdıq. Qayıdıb gələndə isə sonra da onunla hazırlayacağımız tamaşadan əvvəl görüşür, küçələri dolaşır, müzakirələr edirdik. Təsəvvür etmirdim ki, onsuz tamaşa işləyə bilərəm. Çünki onun bütün hərəkətləri mənə ruhən uyğun idi. Hətta Türkiyəyə köçəndə də onun üçün ştat danışmışdım ki, yaradıcılığımızı davam etdirək. Amma o, Bakıda qalmalı oldu. Öz dünyasını müstəqil şəkildə qurdu. Mən həmişə onu etalon kimi misal çəkirəm. Heyif ki, onu erkən itirdik!"

"DƏYƏRLİ DOST VƏ GÖZƏL İNSAN İDİ"

Əməkdar artist Rəhman Rəhmanov deyir ki, Ələkbər Hüseynov Kukla Teatrına gələndə ilk dəfə onların truppasında işləyib: "Biz onunla son günə qədər yaxın dost olmuşuq. İlk dəfə qastrola da mənimlə gedib. Bir neçə ölkəni gəzdik. Hər səfərdə onun nə qədər istedadlı aktyor olduğuna heyran olurdum. Sonra bir çox tamaşalarda bir yerdə oynadıq. Tehranda Ümumdünya Kukla Teatrları Festivalında "Oxay və Əhmədin nağılı" ilə qalib olduq. Dəyərli dost və gözəl insan idi".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
6 İYUL ŞƏNBƏ 2024



KLUBLARIMIZIN AVROKUBOK HAZIRLIĞI

Avro-kubok təmsilçi-lərimiz şans-larından maksimum yararlanmaq üçün hazırlıq prosesinə erkən başlayıblar. Lakin hələlik transfer bazarında xüsusi canfəşanlığın müşahidə edildiyini söyləyə bilmərik.

Azərbaycan klubları üçün yeni avrokubok mövsümü başlayır. Qitəmiqyaslı yarışlardakı format dəyişiklikləri, əsas mərhələlərdə komanda sayının artması təmsilçilərimizin də şanslarını yüksəldib. Düzdür, ilk mərhələdə klublarımıza o qədər də asan rəqiblərin düşdüyünü demək olmaz. Lakin son illərdən fərqli olaraq, üzümüzə gələn mövsüm ölkəmiz yenidən Avropa Liqasında mübarizə aparacaq ki, orada mümkün irəliləmə Konfrans Liqası ilə bağlı da ümidlərin artmasına səbəb olub. Elə avrokubok təmsilçilərimiz də şanslarından maksimum yararlanmaq üçün hazırlıq prosesinə erkən başlayıblar. Lakin hələlik transfer bazarında xüsusi canfəşanlığın müşahidə edildiyini söyləyə bilmərik.

DÖYÜŞƏ İLK OLARAQ "ZİRƏ" ATILIR

Premyer Liqada ötən mövsümün ikincisi və Azərbaycan Kubokunun finalçısı "Zirə" Avropa Liqasının I təsnifat mərhələ-sində mübarizəyə başlayacaq. "Qartallar" burada Moldova "Şerif"i ilə üz-üzə gələcəklər. Tiraspol təmsilçisi avrokuboklarda uğurlu çıxışı ilə tanınır, lakin son illər müəyyən qədər zəifləyib. "Şerif"in əvvəlki əzəmətini itirməsi "Zirə"nin mərhələ adlamaq üçün yaxşı şanslarının olduğunu deməyə əsas verir.



Qəsəbə klubu çox erkən - iyunun 14-dən Türkiyənin Bolu bölgəsində təlim-məşq toplanışına başlayıb və 20 gün orada hazırlaşıb. Transferlərə gəlincə, hamıdan tez mübarizəyə başlayacağı üçün "Zirə" bu baxımdan da sürətli tərpənir. Klub heyətin komplektləşdirilməsi istiqamətində ciddi addımlar atıb. Vladislav Kulaç, İlkin Muradov, Sezar Meza Kolli, Dimitrios Çantakias, Rəhim Sadıxov kimi adlarla vidalaşan "qartallar" müdafiəni Norveç "Jerv"indən Ange Mutsinzi və "Kəpəz"dən heyətə qatdığı Elçin Əlicanovla gücləndirib. Hücuma isə daha əvvəl də "Zirə"də çıxış etmiş Davit Volkov və "Kəpəz"də yaxşı mövsüm keçirən Junior Martins cəlb olunub. Bundan başqa, Fuad Bayramov "Şamaxı"dan birdəfəlik transfer edilib, İsmayıl İbrahimli ilə Rüstəm Əhmədzadə isə daha bir mövsümlük "Qarabağ"dan icarəyə götürülüblər. Azı bir yarımmüdafiəçi transferi ilə "Zirə"ni böyük ölçüdə "Şerif" sınağına hazır hesab etmək olar. Komandaların ilk dueli iyulun 11-də Moldovada, cavab qarşılaşması bir həftə sonra Bakıda olacaq.

UĞURLU HEYƏTİ QORUYAN "QARABAĞ"

Son çempion və ölkə kubokunun qalibi "Qarabağ" Çempionlar Liqasının II təsnifat mərhələsində nisbətən rahat rəqiblə üz-üzə gələcək. Ağdam klubu ya Malta "Hamrun"u, ya da Cəbəllütariq "Linkoln"u ilə qarşılaşacaq. İyunun 18-də Bakıda bir araya gələn klub hazırlıq məqsədilə artıq Avstriyanın Tirol bölgəsinə yollanıb. Orada komanda dörd yoxlama oyununda qüvvəsini sınayaraq tam hazır vəziyyətə gəlməyə çalışacaq. Nisbətən münasib rəqiblə üzləşəcəyindən klub transferlərdə tələsmək niyyətində deyil. Ümumiyyətlə, ağdamlılarda diqqət çəkən əsas məqam keçən mövsüm uğurlu olan heyəti qorumasıdır. Juninyo, Marko Yankoviç, Adullah Zubir, Yassin Benziya kimi oyunçulara yaxşı təkliflər olsa da, "atlılar" onları saxlaya bildilər. Yalnız rusiyalı qapıçı Andrey Lunyov komandanın sıralarını tərk edib ki, o da son zamanlar oyunundan çox ab-havanı korlayan açıqlamalar verməsiylə "yadda qalırdı". Ondan başqa Maksim Medvedev karyerasını bitirib, heyətə düşə bilməyən Adama Diakabi isə yola salınıb. Lunyovun əvəzinə xorvatiyalı qapıçı Fabiyan Buntiç transfer edilibsə, Musa Qurbanlı İsveç "Yurqorden"indən geri qaytarılıb. Daha bir geridönüş isə Rusiya "Krasnodar"ından ola bilər. Kadi Borgesin "Qarabağ"a qayıdışı müzakirə olunur. Ümumən hədəfləri daha böyük olan "Qarabağ" transferlərdə tələsməyəcək.

YENİDƏN QURULAN "SABAH"

Krunoslav Renduliçin rəhbərliyi altında son turda avrokuboklara vəsiqəni təmin etməyi bacaran "Sabah" Konfrans Liqasının II təsnifat mərhələsində mümkün rəqiblərin ən güclüsü - "Makkabi" (Hayfa, İsrail) ilə üz-üzə gələcək. İyunun 20-dən hazırlığa başlayan "bayquşlar" bir neçə gündür, Avstriyada toplanışdadırlar. Ötən mövsümün gedişində baş məşqçi təyin olunan xorvatiyalı mütəxəssis komandanı yenidən qurur. Davit Volkov, Kristian Sebalyos, Kristian da Silva, Maruan Hadudi, Emmanuel Apeh kimi oyunçular artıq yola salınıb. Əvəzində vaxtilə burada çox uğurlu olan Coy-Lens Mikels geri qayıdıb, perspektivli xorvatiyalı yarımmüdafiəçi İvan Lepinitsa transfer edilib. Yaxın zamanda paytaxt klubunun transfer çalışmalarını sürətləndirəcəyi gözlənilir. "Makkabi" qarşısında şans çox görünməsə də, "Sabah"ın asan təslim olmayacağı da bəllidir.



GÖZLƏMƏ MÖVQEYİNDƏ OLAN "SUMQAYIT"

Avrokubok iştirakçıları arasında hələlik fəaliyyəti ən az nəzərə çarpan "Sumqayıt"dır. Düzdür, "gənclik şəhəri" təmsilçisi də digər klublar kimi keçən aydan toplanışa start verib və Türkiyədə hazırlıq keçir. Lakin "kimyaçılar"ın transfer fəaliyyəti durğun görünür. Hələlik yalnız "Zirə"dən ayrılan Rəhim Sadıqov geri qaytarılıb. Əvəzində Erik Sorqa, Abu Dosso, Oktavio Manteka kimi legionerlər yola salınıblar və hələ onların boşluğu doldurulmayıb. Görünür, "Sumqayıt" tələsməməyə, nöqtə transferlər etməyə çalışır.

Onu da qeyd edək ki, Samir Abasovun komandası Konfrans Liqasının II təsnifat mərhələsində Macarıstan "Fehervar"ı ilə qarşılaşacaq. Rəqib kifayət qədər güclü və təcrübəlidir.

